

**Şahin Fərzəliyev**
*Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq şöbəsinin müdiri, Tarix elmləri doktoru, professor*



**Bəymirzə Şabıyev**
*Bakı Dövlət Universiteti, Tarix üzrə fəlsəfə doktoru, dosent*

# Şirvanşahların Azərbaycanı birləşdirmə cəhdləri, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (XV əsr)

### *XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanda siyasi vəziyyət*

XIV əsrin sonu – XV əsrin əvvəlləri Yaxın və Orta Şərq, o cümlədən Azərbaycan xalqının tarixində olduqca mürəkkəb və keşməkeşli dövrlərdən biridir. Belə ki, Şeyx Üveys Cəlairinin ölümündən sonra bölgədə yaranmış nisbi sakitlik pozulmuş, bir tərəfdən onun varisləri, digər tərəfdən isə ayrı-ayrı feodal qruplaşmaları arasında mübarizə başlamışdı. Belə bir qarışıq zamanda Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun regiona yürüşlərə başlaması olduqca mürəkkəb olan durumu daha da gərginləşdirmişdi.

Bəhs olunan dövrdə Azərbaycanın Kür çayından cənubdakı əsas əraziləri Cəlairilər dövlətinin tərkibinə daxil idi. Sultan Əhməd Cəlairi (1382-1410) hakimiyyət uğrunda mübarizədə rəqiblərinə qalib gələrək, qısa müddətə olsa da, Cəlairilər dövlətinin ərazisini bərpa etməyi bacarmışdı. Lakin yaranmış nisbi sakitlik Toxtamış və Teymurun yürüşlərinin başlanması nəticəsində yenidən pozulmuş, Sultan Əhməd xarici müdaxilələr qarşısında duruş gətirməyərək Bağdada qaçmışdı.

XIV əsrin 80-90-cı illərində Azərbaycan uğrunda Teymurilər və Qızıl Orda dövləti arasındakı toqquşmalar böyük dağıntılara səbəb olmuş, əhalinin social-iqtisadi durumu, insan potensialına ağır zərbə vurmuşdu. 1395-ci ildə Əmir Teymur Terek savaşında Toxtamışın ordusunu məğlub etmiş və beləliklə də Azərbaycan uğrunda Teymuri-Qızıl Orda qarşıdurması birincinin xeyrinə başa çatmışdı.

Azərbaycan Teymurilərin hakimiyyəti altına düşsə də, xalqın iradəsini qırmaq mümkün olmamış, Teymuri ağalığına qarşı hürufilik ideologiyası altında xalq azadlıq mübarizəsi başlamış, Əlincə qalası direniş mərkəsinə çevrilmişdi. 1393-cü ildə hürüfi ideoloqu Fəzlullah Nəimi Naxçıvanda edam edilsə də, bu hərəkat uzun müddət

səngiməmiş, Şərqin bir çox ölkələrində qəddar rejimlərə qarşı mübarizə bayrağına çevrilmişdi.

1405-ci ildə Əmir Teymurun ölümündən sonra onun varisləri – Mirzə Ömər, Əbubəkr və Miranşah arasındakı mübarizə, Sultan Əhməd və Qara Yusifin yenidən siyasi səhnəyə qayıtması və ara çəkişmələrinin güclənməsi Azərbaycanın cənub torpaqlarında vəziyyətin daha da ağırlaşmasına gətirib çıxarmışdı.

XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanın Kür çayından şimaldakı torpaqlarında vəziyyət bir qədər fərqli idi. Belə ki, olduqca mürəkkəb olan dövrdə Azərbaycanın şimal torpaqlarında Şirvanşahlar, Şəki bölgəsində isə Orlat sülaləsi müəyyən mənada öz müstəqilliklərini qoruyub saxlamağı bacarmışdılar. Şirvanşah I İbrahim (1382-1417) bölgədə yaranmış reallıqları düzgün dəyərləndirərək, Toxtamış və Teymur qarşıdurmasında çevik manevr siyasəti yürütməklə Şirvanı dağıntılardan xilas etməyə müvəffəq olmuşdu. Teymurun ölümündən sonra I İbrahim Teymurilərə qarşı açıq mübarizəyə başlamış, hətta tarixi Azərbaycan torpaqlarının birləşdirilməsi ideyasını qısa müddətli olsa da gerçəkləşdirməyə də nail olmuşdu.

## *Şirvanşahların Azərbaycanı birləşdirmə cəhdləri*

Şirvanşah I İbrahim 1386-cı ildə Əmir Teymurun hakimiyyətini qəbul etsə də Şirvanın müstəqilliyi uğrunda mübarizədən bir an belə əl çəkməmiş, gizli olsa da Teymuri ağalığına qarşı mübarizə aparan qüvvələrə, həmçinin hürufilik hərəkatına dəstək göstərmişdi. Hələ Teymurun sağlığında belə bölgədə öz nüfuzunu gücləndirməkdən çəkinməyən I İbrahim Şəki hakimi Seydi Əhməd və gürcü çarı Georgi ilə Teymur arasında sülhə nail olmaqla öz təsir dairəsini Şəki və Gürcüstana da yaymağa nail ola bilmişdi. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın siyasi mənzərəsində yeni reallıqlar yarandı. Teymur ölümündən az öncə "Hülaku xan ulusuna" daxil olan ölkələrin idarəsini nəvəsi Mirzə Ömərə versə də, atası Miranşah və qardaşı Əbubəkr Azərbaycan uğrunda onunla savaşa başladılar. Yaranmış vəziyyətdən məharətlə istifadə edən Şirvanşah I İbrahim Teymurilərin itaətindən imtina edərək onlarla açıq mübarizəyə başlamış, Gəncəni və Qarabağın bir hissəsini öz nəzarəti altına almışdı. Gürcü çarı II Konstantin, Şəki hakimi Seydi Əhməd, Gəncə hakimi Yarəhməd Qaramanlı, Ərdəbil hakimi Bəstam Cagir Şirvanşah I İbrahimlə Teymuri ağalığına qarşı vahid cəbhədə birləşdilər. Həsən bəy Rumlunun məlumatına əsasən, Ömər MIrzənin əmir Bəstam Cağiri təslim etmək tələbinə I İbrahim belə cavab vermişdi: "İndi artıq yaydır. Əgər əlahəzrət qışı keçirməyə Qarabağa təşrif gətirsə Sizin bəndəniz özü əmir Bəstamı əlahəzrətin hüzuruna gətirəcəkdir"[1]. Bu cavabdan qəzəblənən Mirzə Ömər öz qoşunları ilə Kür sahilinə yaxınlaşdı və tərəflər arasında bir həftə davam edən qarşıdurma heç bir nəticə vermədi. Miranşah və Əbubəkrin Sultaniyyə və Cənubi Azərbaycanın bəzi şəhərlərini ələ keçirməsi xəbəırini alan Mirzə Ömər Şirvanşahla barışaraq Qarabağı tərk etməyə məcbur oldu. 1406-cı ilin yazında Əbubəkr və Mirzə

---

[1] Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər O.Əfəndiyev, N.Musalı, Kastamonu, 2017, s.45

Ömər arasında qarşıdurmadan istifadə edən Təbriz əhalisi Şeyx Əxi Qəssabın başçılığı altında üsyana qalxaraq şəhəri ələ keçirməyə nail olmuşdular. Təbrizin tamğaçısı olan Şeyx Əxi Qəssabın Şirvanşah I İbrahimi şəhərə dəvət etməsi ilə uzun fasilədən sonra tarixi Azərbaycan torpaqlarının yenidən vahid dövlətçilik çərçivəsində birləşdirilməsi üçün əlıverişli şərait yaranmış oldu. 1406-cı ilin mayında Təbrizə daxil olan I İbrahim müvəqqəti də olsa Təbriz taxtına oturmaqla Azərbaycanı birləşdirmək arzusuna nail ola bildi[2].

Şirvanşah I İbrahimin Təbriz taxtında oturduğu qısa müddət ərzində əhaliyə qarşı ədalətli davranması xalq arasında onun nüfuzunun artmasına səbəb olmuşdu. Azərbaycan torpaqlarının birləşdirilməsi Şirvanşah I İbrahimin mahir siyasətçi kimi diplomatik qələbəsi olsa da, bunun ömrü uzun çəkmədi. Əmir Bəstam Cagirlə münaqişədən sonra hərbi-siyasi arenada Cəlairi, Qaraqoyunlu və Teymurilər kimi güclü rəqiblərlə baş-başa qalan I İbrahim dövrün reallıqları ilə barışmaq zorunda qaldı. Sultan Əhməd Cəlairi və Qara Yusifin Təbrizə yaxınlaşmasını öyrənən I İbrahim yaxın adamları ilə məsləhətləşmədən sonra Şirvana qayıtmaq qərarına gəldi. "Biz bu alihəzrət xanədanla (Cəlairilərlə) uzun müddət dostluq etmişik. Ölkə (Azərbaycan) başsız qaldığından və Azərbaycan Sultan Əhmədin əcdadlarının iqamətgahı olduğundan biz bura yalnız zalımların təbəələri incitdiklərinə görə gəlmiş və onları məmurların azğınlığından xilas etmişik. İndi isə evin əsl sahibi gəlldiyi üçün biz də ölkəmizə qayıdırıq"[3],- deməklə Şirvanşah I İbrahim yenidən uzaqgörən, ehtiyatlı diplomat olduğunu nümayiş etdirərək Şirvana qayıtmış, beləliklə də, onun tarixi Azərbaycan torpaqlarını birləşdirmək uğrunda ilk cəhdi uğursuzluqla nəticələnmişdi. Bu uğursuzluq ilk növbədə həmin dövrdə hakimiyyət savaşı aparan qruplaşma liderlərinin orta əsrlər dövrünün mənəm- mənəmlik, cahangirlik fəlsəfəsi, şəxsi, tayfa maraqlarının milli, vahid dövlətçilik maraqlarından daha üstün tutması və s. kimi amillərlə bağlı olmuşdu.

1410-cu ildə baş vermiş hadisələr Şirvanşah I İbrahimə Azərbaycanı birləşdirmək üçün yenidən cəhd göstərmək üçün tarixi şans yaratdı. Sultan Əhməd Cəlairi Qara Yusifin Ağqoyunlu Qara Osmana qarşı yürüşə çıxmasından istifadə edərək Bağdaddan Təbrizə doğru hərəkətə keçərək Şirvanşah I İbrahimdən də yardım istədi. Qaraqoyunluların Şirvan üçün də ciddi təhdid olduğunu görən I İbrahim Sultan Əhmədlə müttəfiqlik yaratmaqla Azərbaycanda da öz mövqeyini möhkəmləndirmək qərarına gəldi və oğlu Kəyumərsi Sultan Əhmədə köməyə göndərdi. Qara Yusif daha cəld hərəkət edərək müttəfiqlərin birləşməsinə imkan vermədi. 1410-cu ildə Şənbi-Qazan yaxınlığında Sultan Əhmədi məğlub edən Qara Yusif Şirvanşahın oğlu Kəyumərsi də əsir götürdü. Beləliklə, Şirvanşah I İbrahimin növbəti dəfə Azərbaycanı birləşdirmək cəhdi də uğursuzluqla nəticələndi. 1412-ci ildə Qara Yusif Kür sahilində Şirvanşah I İbrahim və müttəfiqlərini məğlub edərək Şirvanşahlar dövlətini Qaraqoyunlu dövlətinin vassalına çevirməyə nail oldu.

---

[2] Yenə orada, s. 47-48

[3] Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s.382

## *Qaraqoyunlu dövləti*

XV əsr müasir Cənubi Qafqaz , İran, İraq, Suriya və Şərqi Anadolu tarixində türkman (Qaraqoyunlu və Ağqoyunlu) ağalığının yeni mərhələsi (birinlci mərhələ səlcuqlu dövrüdür) hesab olunur. Oğuz əsilli olan Qaraqoyunlu və Ağqoyunlular siyasi tarix arenasında türkman mənşəli tayfalar kimi tanınmışdılar. Qaynaqların təhlili göstərir ki, oğuz tayfaları islamı qəbul etdikdən sonra, təxminən X-XI əasrlərdən etibarən "oğuz" etnonimi aradan çıxmağa başlamış, bu anlayış türkman (iman gətirən türklər) istilahı ilə əvəz olunmuşdu. Türkmanların bir qisminin Qaraqoyunlu və Ağqoyunlu adlanması ilə bağlı mənbələrdə və tarixşünaslıqda müxtəlif versiyalar (qoyunun islama qədər totem olması, bayraqlarında qara və ağ qoç rəsminin həkk edilməsi, qara və ağ rəngli qoyun sürülərinin saxlanması və s.) mövcuddur. Bu tayfaların həyatında qoyunçuluq təsərrüfatının aparıcı rol oynaması, qoyunun məhsuldarlıq simvoluna çevrilməsi, "qara" və "ağ" sözlərinin qədim türk dillərində "böyük", "uca", "yüksək", "ulu" anlamda işlədilməsi heç şübhəsiz ki, onların Qaraqoyunlu və Ağqoyunlu adlanmasında da əsas rol oynamışdı. Dövrümüzə qədər gəlib çatmış qoç heykəlləri şəklində olan məzar daşları da bu tayfalarla bağlıdır[4].

Qaraqoyunlu və Ağqoyunlu tayfa birliyini təşkil edən tayfa və boyların Azərbaycana Mərkəzi Asiyadan gəlməsi heç bir şübhə doğurmasa da, onların səlcuqilər və monqol ağalığı zamanında miqrasiya etmələri haqqında mülahizələr mövcuddur. Son araşdırmalar göstərir ki, bu tayfaların Azərbaycan ərazisinə gəlişi daha erkən dövrə, VII-IX əsrlərə aiddir. Qaraqoyunlu və Ağqoyunluların saray tarixçisi XV əsr salnaməçisi Əbubəkr Tehrani yazır: "Uzun Həsənin iyirmi üçüncü babası Sunqur bəy peyğəmbərlərin sonuncusu və başçısı Məhəmməd ibn Abdullah ibn Əbdülmütəllibin ...dövründə hakimiyytdə olub, ...yetmiş il Türküstanda hökmdar olub. Qıpçaq cölünə gəlib iyirmi il oranın yaylaq və qışlaqlarında olub. Ondan sonra Alagöz yaylağına və Göyçə dənizinə tərəf gəlmiş, bu sərhəddə kafirlərlə müharibə etmişdi. Döyüşlərin birində ona ox dəymiş və o, Allahın dəvətini qəbul etmişdi"[5].

XIII əsrdə monqol yürüşlərinin başlanması ilə bağlı olaraq Qaraqoyunlu və Ağqoyunlu türkmanları Azərbaycandan İraq, Suriya, Kiçik Asiyaya köçmüş, Hülakü səltənətinin süqutundan sonra onların Azərbaycan uğrunda mübarizəsi başlamış, həmin tayfaların bir hissəsi yenidən tarixi Azərbaycan torpaqlarına qayıtmış, bir hissəsi isə hazırda da İraq, Suriya və Şərqi Anadolu torpaqlarında öz dili, adət-ənənələrini qorumaqla yaşamaqda davam edirlər.

XV əsr Osmanlı salnaməçisi Mövlana Şükrullahın məlumatları Qara Yusifin Oğuz xaqanın oğlu Dəniz xanın soyuna məxsus olmasını təsdiq edir[6].

Qaraqoyunlular Dəniz xanın oğlu Yivənin nəslinə mənsub olmuşdular. Qaraqoyunlu xanədanını yaradan hakim sülalə təmsilçilərinin baharlı tayfasına

---

[4] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. (Müasir Türkiyə tarixşünaslığında). Bakı, 2012, s. 23-25

[5] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə. Fars dilindən tərcümə, ön söz, şərhlər və göstəricilərin müəllifi Rəhilə Şükürova, Bakı, 1998, s.43

[6] Şükrullah. Behçetüt təvarih. Osmanlı tarihleri. c. I, Haz. N.Atsız, İstanbul, 1949, s.51 ;Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.26

məxsusluğu ilə bağlı tarixi ədəbiyyatlarda fikirlər olsa da, dövrün qaynaqları bunu təsdiq etmir. Əbubəkr Tehraninin "Kitabi Diyarbəkriyyə" əsərində və bəzi Osmanlı qaynaqlarında Qaraqoyunlu hökmdarlarının barani tayfasına məxsus olması göstərilmişdir[7].

Əbubəkr Tehraninin yazdığına görə Ağqoyunlu türkmanları Oğuz xaqanın oğlu Gün xanın varisləri olmuşlar və Ağqoyunlu sülaləsinin təmsilçiləri bayandur tayfasına məxsus idilər. Onu da qeyd etmək lazımdır ki, soykök baxımından qohum olmalarına rəğmən Qaraqoyunlu və Ağqoyunlu türkmanları özlərini Mərkəzi Asiya və Osmanlı türklərindən fərqləndirirdilər. 1406-cı ildə Mardin yaxınlığında Qaraqoyunlularla Ağqoyunlular arasında baş vermiş ağır döyüşdən sonra Qara Yusifin Qara Osmana yazdığı məktub da bunu təsdiq edir: "Biz hər ikimiz türkmanıq. Bundan sonra bir-birimizlə vuruşmamalıyıq, bundan artıq bir-birimizi əzməməliyik. Bizlərdən hər birimiz düşmənlərimiz olan Rum və cığataylarla vuruşmalıyıq. Sən Şam və Ruma qarşı, mən də cığataya qarşı vuruşmalıyıq"[8].

Qaraqoyunlu tayfa birliyinə daxil olan çoxsaylı boylar içərisində barani, baharlı, səədli, qaramanlı, alpout, duharlı, cagirli, hacılı, bayramlı və ağacəri tayfaları aparıcı rol oynayırdılar. XIV əsrin 70-ci illərindən etibarən fəal şəkildə siyasi arenaya qoşulan Qaraqoyunlu xanədanının başçısı Bayram Xoca Cəlairi Sultan Üveysin nüfuzlu əmirlərindən biri olmuş, Van gölünün şimalındakı Ərçiş bölgəsində Qaraqoyunlu bəyliyini yaratmışdı. Onun ölümündən sonra oğlu Qara Məhəmməd (1380-1389) Sultan Əhmədlə qohumluq yaradaraq öz mövqeyini möhkəmləndirməyə çalışdı. 1387-ci ildə Qara Məhəmməd Ərzrum-Çapakçur səfəri zamanı Teymurun ordusu üzərində əzmkar qələbə qazanmış və bununla da Qaraqoyunlu-Teymuri düşmənçiliyinin əsası qoyulmuşdu. XIV əsrin 80-cı illərində yaranmış siyasi-hərbi qarışıqlıqdan yararlanan Qaraqoyunlular 1388-ci ildə Təbrizi ələ keçirmiş və bununla da onlar Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə başlamışdılar. Qara Yusifin dövründə (1389-1420) Qaraqoyunluların hakimiyyət uğrunda mücadiləsi davam etmiş, 1391-1392-ci illərdə Təbriz yenidən ələ keçirilsə də, şəhərdə möhkəmlənmək istəyi baş tutmamışdı. Qara Yusif Teymura qarşı Sultan Əhmədlə ittifaq qursa da, qüvvələr nisbəti onların xeyrinə olmamış, 1392-ci il Van, 1394-cü il Bağdad savaşlarında Teymura məğlub olan müttəfiqlər Osmanlı sultanı İldırım Bəyazidin sarayına pənah aparmışdılar. 1402-ci il Ankara savaşından sonra Qara Yusiflə Sultan Əhməd Suriyaya qaçaraq Misir məmlük sultanlığının ərazisinə sığındılar, lakin Teymurun təhdidi qarşısında duruş gətirməyən Misir məmlük hökmdarı Sultan Fərəc onları Dəməşqdə həbs etdirsə də, 1405-ci ildə Teymurun ölümündən bir müddət əvvəl müttəfiqlər həbsdən xilas olundular. Həsən bəy Rumlunun məlumatına əsasən, "Sultan Əhməd və Qara Yusif həbsdə olduqları zaman " Qara Yusifin bir oğlu anadan oldu, Sultan Əhməd onu oğulluğa götürdü. Adını Pirbudaq qoydular və bir-biriləri ilə şərt kəsdilər ki, əgər bu bəladan nicat tapsalar, Azərbaycan Qara Yusifin, İraqi-Ərəb isə Sultan Əhmədin olsun"[9]. Teymurun ölümündən sonra varisləri arasında başlanmış

[7] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s.49; Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s. 30-31

[8] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s.59

[9] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s. 53

ara müharibələri Sultan Əhməd və Qara Yusifə öz məqsədlərinə nail olmaq üçün əlverişli şəraitin yaranmasına imkan yaratdı. Sultan Əhməd Bağdadı ələ keçirdikdən sonra 1406-cı ildə Təbrizi tutsa da, əhalinin narazılığı və Teymurilərin təhdidi üzündən şəhəri tərk etmək məcburiyyətində qaldı. Qara Yusif Vanda qüvvə topladıqdan sonra Azərbaycan uğrunda mübarizəyə başladı. Qara Yusiflə Teymuri Əbubəkr arasında ilk savaş 1406-cı ilin oktyabrın 14-də Naxçıvanın qərbində, Araz sayının sahilində baş verdi. Savaşda məğlub olan Əbubəkr Mərənd yolu ilə Təbrizə gələrək şəhəri qarət etmiş, Qaraqoyunluların onu təqib edəcəklərini düşündüyündən oradan Reyə, sonra isə Sultaniyyə şəhərinə qaçmışdı. Savaşdan sonra çoxlu qənimət ələ keçirən Qara Yusif Təbrizin adlı-sanlı adamlarının xahişi ilə öz darğasını şəhərə göndərmiş, özü isə qışlamaq üçün Mərənd bölgəsinə getmişdi. Teymuri Əbubəkr yenidən qüvvə toplayaraq 1408-ci ildə Azərbaycanı geri qaytarmaq üçün Təbrizə doğru yürüşə çıxsa da, 1408-ci il aprelin 21-də Təbriz yaxınlığında Sərdrud savaşında Qara Yusif tərəfindən yenidən məğlubiyyətə uğramışdı . Savaşda Miranşah öldürülmüş, Əbubəkr qaçmış və bununla da Teymurilərin Azərbaycanda hakimiyyətinə son qoyulmuşdu.

Beləliklə, 1408-ci il Sərdrud savaşından sonra Azərbaycanın Kür çayından cənubdakı torpaqları Qara Yusifin əlinə keçmiş və faktiki olaraq Qaraqoyunlu dövləti yaranmışdı. Dövrün salnaməçiləri Mirxond, Həsən bəy Rumlu və b. bu savaşdan sonra Qara Yusifin oğlu Pirbudağı padşahlıq taxtına oturtması və onun adından pul kəsdirməsini təsdiq edirlər: “ Qara Yusif Pirbudağı səltənətə yüksəldib, sikkəni və xütbəni onun adı ilə zinətləndirdi”[10]. Numizmatik araşdırmalar da 1408-ci ildən etibarən Pirbudağın adından Təbrizdə sikkələrin kəsilməsi və Qaraqoyunlu dövlətinin yaranmasını sənədləşdirir[11].

1409-cu ildə Sultan Əhmədin Həmədan yaylaqlarının ona verilməsi tələbinin Qara Yusif tərəfindən rədd edilməsi onlar arasında münasibətlərin pozulmasına səbəb olmuşdu. Sultan Əhməd 1410-cu ildə Qara Yusifin Ağqoyunlulara qarşı Ərzincana səfərə çıxmasından istifadə edərək Şirvanşah I İbrahimdən də yardım istəyərək Təbrizə doğru yürüşə başlamışdı. Bu xəbəri eşidən Qara Yusif Ağqoyunlu Qara Osmanla sülh bağlayaraq sürətlə Təbrizə qayıtmış, Cəlairi-Şirvan qoşunlarının birləşməsinə imkan verməmişdi. 1410-cu il avqustun 30-da Təbriz yaxınlığında, Əsəd qəsəbəsi ətrafında baş vermiş savaşda Qara Yusif Sultan Əhmədi məğlub edərək Azərbaycanda Cəlairilərin hakimiyyətinə hüquqi baxımdan da son qoymuşdu. Bu qələbədən sonra Qara Yusif Sultan Əhmədə Azərbaycanın Pirbudağa verilməsi haqqında yarlıq yazdırmış və Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyətə gəlməsi rəsmiləşmişdi[12]. Həsən bəy Rumlu yazırdı: “ O əsnada Pirbudaq xan məclisə daxil oldu və əmirlər dedilər: Sənin ölkən Pirbudaq xana çatacaq. Azərbaycan məmləkətinin Pirbudaq xana təhvil verilməsi haqqında qızıl suyu ilə bir fərman yaz! Onların təklifinə əsasən öz xətti ilə fərman yazan Qara Yusif dedi: “Biz Şah Məhəmmədi Azərbaycanda qoymuşduq. Sən onu buradan çıxardın. İndi öz köhnə

---

[10] Yenə orada, s. 60

[11] Сейфаддини М.А.Монотное дело и денежное обрашение в Азербайджане XII-XVвв. Книга II, Баку, 1981, с.163

[12] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.63-64; Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri üzrə. Bakı, 1983, s.90-91

yerini ona bağışla". O barədə də öz əli ilə bir fərman qələmə aldı. Məzmunu belə idi: "Bağdadda olan əziz oğullarım...bilsinlər ki, Bağdad taxtgahını və İraqi-Ərəb diyarını əziz böyük oğlum Şah Məhəmməd Bahadıra verdim[13]". Beləliklə, 1410-cu ildə Azərbaycanda hakimiyyətin Pirbudağın, Ərəb İraqında isə Qara Yusifin digər oğlu Şah Məhəmmədin əlinə keçməsi rəsmiləşdirildi. Paytaxtı Təbriz olmaqla tərkibinə Azərbaycanın Kür çayından cənubdakı torpaqlarının, Ərəb İraqının, Şərqi Anadolunun da daxil olduğu Qaraqoyunlu dövlətinin yaranması prosesi bununla da başa çatdı. Qaraqoyunlu dövlətinin siyasi hüdudları heç də daim stabil olmamış, baş vermiş savaşlarla bağlı olaraq zaman-zaman dəyişmiş, bəzi vaxtlarda Əcəm İraqı və Gürcüstan da bu dövlətin tərkibində olmuşdu.

## *Qaraqoyunlu dövlətinin qonşu dövlətlərlə münasibətləri*

Qaraqoyunlu dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən birini Teymurilər dövləti ilə qarşılıqlı münasibətlər təşkil edirdi. Azərbaycanın və Ərəb İraqının itirilməsi ilə heç cür barışmayan Şahrux Teymuri şahzadələri ilə hakimiyyət çəkişmələrinə cəlb edildiyindən mövcud reallıqlarla hesablaşmaq zorunda qalmışdı. İnzibati baxımdan Əcəm İraqına daxil olan, böyük iqtisadi və ticarət mərkəzinə çevrilən Sultaniyyə uğrunda mübarizə Qaraqoyunlu-Teymuri münasibətlərinin yenidən kəskinləşməsinə səbəb oldu. Qara Yusif 1414-1415-ci illərdə diplomatik yolla Sultaniyyəni almağa nail olmadıqda, 1419-cu ildə zor tətbiq edərək Sultaniyyə və Qəzvin şəhərlərini ələ keçirdi. Danışıqlar yolu ilə münaqişəni həll edə bilməyən Şahrux 1420-ci ildə Təbrizə doğru yürüşə cıxmağa məcbur olmuşdu. Qaynaqların məlumatına görə türkmanlarla savaşdan çəkinən Şahrux səfərin uğurlu olması üçün Allaha yalvarır, Quranın Fatihə surəsini hafizlərə bir gündə 12 min dəfə oxutdururdu[14]. Teymuri hökmdarı hətta, Qəzvin və Sultaniyyə şəhərlərinin qarşılığında Azərbaycan, Ərəb İraqı, Rum və Şama qədər əraziləri Qaraqoyunlulara verməyə hazır olduğunu bildirirdi. Şahruxa qarşı savaş yoluna qalxan Qara Yusifin Ucanda qəfil ölümü (1420-ci il 13 noyabr) ilə durum Teymurilərin xeyrinə dəyişmiş oldu. Varislərindən heç biri düşərgədə olmadığından ordu dağılmış, hətta hərəmləri belə xəzinənin dalınca getmiş, Qara Yusifin cəsədi qarətə məruz qalmışdı. Çox böyük tarixi şəxsiyyət, zəmənəsinin mahir sərkərdəsi və dövlət xadimi olan Qara Yusifin ölümü Qaraqoyunlu dövlətinin sonrakı durumuna ağır təsir göstərdi. Həsən bəy Rumlu yazırdı: "Qara Yusif döyüş meydanında qan içən bir aslan, əyləncə məclisində gövhər saçan bir bulud idi. Ədaləti və insafı ilə tanınmış, alicənab və səxavətli birisi kimi vəsf edilmişdi. Əxlaqının gözəlliyi baxımından bütün dünya əhlindən üstün idi və cəmi əmrlərində və qadağalarında Ulu Tanrının qorxusunu göz önündə saxlayırdı"[15]. Son araşdırmalar göstərir ki, Qara Yusif Həsən padşahdan 50 il öncə Quranı Azərbaycan türkcəsinə tərcümə etdirmişdi[16].

Atasının vəfatından sonra oğlu Qara İsgəndər Şahruxa qarşı savaşa girmiş, 1420-ci il iyulun 30-da baş verən Aləşkərd döyüşündə Teymurilər böyük çətinliklə

[13] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s. 70
[14] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.136
[15] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.96-97
[16] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.68

olsa da qalib gəlmişdilər. Əbubəkr Tehrani yazırdı: "Müharibədən və İsgəndər qaçandan sonra rahat olan həzrət xaqan (Şahrux) Azərbaycanın idarəsini Sahibqıranın atası (Uzun Həsən nəzərdə tutulur- red.) Əli bəyə həvalə etdi.... Əli bəy bir neçə gün Təbrizdə qaldı. Qara Yusifin oğlu İsfahan bəy atasının və qardaşının yerində hakim olmaq iddiasında idi, buna görə də qoşununu Təbrizə tərəf çəkdi. Əli bəy vəziyyəti ağır görüb, atasının torpağını öpmək əzmi ilə Diyarbəkrə gəldi"[17].

Şahruxun qayıtmasından sonra Qara İsgəndər yenidən hakimiyyəti öz əlinə almağa müfəffəq oldu. 1427-1428-ci illərdə Qara İsgəndərin Şirvana yürüşü və Sultaniyyə şəhərini ələ keçirməsi Şahruxun Azərbaycana növbəti səfərinə səbəb oldu. 1429-cu ilin sentyabrında Salmas yaxınlığında Qara İsgəndəri məğlub edən Şahrux Azərbaycana nəzarəti Qaraqoyunlular olmadan əldə saxlaya bilməyəcəyini görüb, Qara Yusifin varisləri arasındakı çəkişmələrdən istifadə etmək qərarına gəldi. O, 1430-cu ildə Qara Yusifin kiçik oğlu Əbu Səidi Azərbaycana hakim təyin edərək Herata qayıtdı. 1431-ci ildə qardaşı Əbu Səidi devirən Qara İsgəndərin 1434-cü ildə Teymurilərin müttəfiqi Şirvanşahların üzərinə yürüşü Şahruxun növbəti dəfə Qaraqoyunlulara qarşı səfərinə gətirib çıxarmışdı. 1435-ci ildə Şahrux Şirvanşah I Xəlilullah, Ağqoyunlu Qara Osmandan da yardım tələb edərək Təbriz yaxınlığında Qara İsgəndəri məğlubiyyətə uğratdı. Qara İsgəndər Osmanlı ərazisinə qaçdıqdan sonra Şahrux onun qardaşı Cahanşahı Azərbaycana hakim təyin edərək Herata qayıtmışdı. 1447-ci ildə Şahruxun ölümündən sonra Teymuri şahzadələri arasındakı çəkişmələr Cahanşaha Qaraqoyunlu sərhədlərini şərq istiqamətində xeyli genişləndirmək üçün əlverişli imkanlar yaratdı. 1453-1454-cü illərdə Cahanşah Teymuriləri məğlub edərək Sultaniyyə, Qəzvin, Qum, Şiraz, İsfahan, Kirman və Yəzd şəhərlərini ələ keçirməyə nail oldu. 1457-ci ildə Teymuri hökmdarı Baburun ölümündən istifadə edən Cahanşah Teymurilərə qarşı növbəti yürüşə başlayaraq Mazandaranı və Teymurilərin paytaxtı Heratı da ələ keçirdi. Lakin oğlu Həsənəlinin Azərbaycanda atasına qarşı qiyam qaldırması və Səmərqənd hakimi Əbu Səidin savaşa hazırlaşması Cahanşahı Teymurilərlə sülh bağlamağa məcbur etdi[18]. Əbubəkr Tehrani yazır: "Hər iki tərəf sülh danışıqlarına başladı. Cahanşah Mirzə tərəfdən Qazı Abdullah getdi və sülh barədə razılıq əldə olundu. Sülh müqaviləsinin mətnini bu bəndə yazdı. Məzmunu belə idi: Abi-Rövşən sərhəd və Əlaüddövlə Mirzəyə məxsus Astrabadı ayıran nöqtə oldu. Digər, Xorasan və Qəhestan torpaqları Sultan Əbu Səidə məxsus oldu"[19]. Beləliklə, Cahanşah Heratı Teymurilərə qaytarsa da, Əcəm İraqı, Fars və Kirman bölgələrini Qaraqoyunlu dövlətinin tərkibinə qatmağı bacardı. 1458-ci il Herat barışığından sonra Qaraqoyunlu dövləti ilə Teymurilər arasında heç bir ciddi qarşıdurma qeydə alınmamış və müttəfiqlik münasibətləri qorunub saxlanmışdı.

XV əsr Azərbaycan tarixinin önəmli problemlərindən biri də Qaraqoyunlu və Şirvanşahlar arasındakı qarşılıqlı münasibətlərdən ibarətdir. XV əsrin əvvəllərindən Cahanşahın hakimiyyətə gəlməsinə qədər Qaraqoyunlu-Şirvan manasibətləri gərgin xarakter daşımışdır. Bu gərginlik Şirvanşah I İbrahimin də Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirmək istəyi və Qaraqoyunluların Şirvanın özü üçün də

[17] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s. 70; Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə., s.95-96
[18] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s. 48
[19] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s.189

təhlükə və təhdid olması ilə bağlı olmuşdur. 1410-cu ildə Cəlairi-Qaraqoyunlu qarşıdurması zamanı I İbrahimin öz oğlu Kəyumərsi Sultan Əhmədə yardıma göndərməsi də heç şübhəsiz bununla bağlı olmuşdu. Qara Yusif Kəyumərsi əsir almış, İbrahimin onu azad etmək təklifini rədd etmiş[20], sonra isə Kəyumərsi tabe olmaq tələbi ilə İbrahimin yanına göndərməsindən şübhələnən Şirvanşahın öz oğlunu qətlə yetirməsi Şirvan-Qaraqoyunlu münasibətlərini daha da gərginləşdirdi. Kəyumərsin edamından sonra Qara Yusifin tabe olmaq tələbinin I İbrahim tərəfindən rədd edilməsi tərəflər arasında savaşı qaçılmaz etdi. 1412-ci ildə Kür çayı sahilində baş vermiş savaşda Qara Yusif Şirvanşah I İbrahim və onun müttəfiqləri Şəki hakimi Sidi Əhməd və gürcü çarı II Kosnstantini məğlub edərək onu Şirvanşahın oğlanları ilə birlikdə əsir götürərək Təbrizə apardı. Bir illik həbsdən sonra Şirvanşah 1200 tümən can bahası ödənilmək və Qaraqoyunlu dövlətinin vassalı olmaq şərti ilə azad olundu, azad olduqdan sonra ölümünə qədər, formal da olsa, Qaraqoyunlu dövlətinin vassallığına riayət etməli oldu. 1417-ci ildə Şirvanda hakimiyyətə gələn I Xəlilullah Qaraqoyunlu asılılığından imtina edərək Teymurilərlə ənənəvi müttəfiqlik siyasətinə qayıtmış, 1420-ci ildə Şahrux Qarabağda olarkən onun hüzuruna gələrək itaət bildirmiş, 1421-ci ildə baş verən Alaşkerd savaşında Şirvanşahın qoşunları da Qara İsgəndərə qarşı vuruşmuşdular. Şirvanşahın Şahruxla ittifaqından qəzəblənən Qara İsgəndər 1425 və 1427-ci illərdə Şirvana qarətçi yürüş təşkil etdi. Şirvanşah Qaraqoyunlulara qarşı Ağqoyunlu Qara Osmanla da müttəfiqlik münasibətləri yaratmışdı. Şirvan qoşunları 1429-cu il Salmas yaxınlığındakı döyüşdə də Şahruxun ordusunun tərkibində Qara İsgəndərə qarşı vuruşmuşdular.

1434-cü ildə Qara İsgəndərin Şirvanı qarət etməsi, I Xəlilullahın yardım üçün Şahruxa müraciət etməsinə səbəb oldu. 1435-ci ildə Təbriz yaxınlığındakı savaşda Şirvanşah I Xəlilullahın və Ağqoyunlu Qara Osmanın qoşunları da Şahruxun tərəfində çıxış edərək Qara İsgəndəri məğlubiyyətə uğratdılar.

Cahanşahın hakimiyyətə gəlməsindən sonra Qaraqoyunlu-Şirvan münasibətlərindəki düşmənçiliyə son qoyulmuş, hətta tərəflər arasında müttəfiqlik yaranmışdı. Şirvanşah I Xəlilullah Cahanşahın yardımı ilə Ağqoyunlu Həsən Bayanduri tərəfindən dəstək alan Şeyx Cüneydi 1460-cı ildə baş verən Samur çayının sahilindəki döyüşdə məğlub etdi.

Qaraqoyunlu dövlətinin xarici siyasətində Osmanlı dövləti ilə münasibətlər də önəmli yer tuturdu. Qaraqoyunlularla Osmanlı dövləti arasındakı əlaqələr hələ XIV əsrin sonlarından başlamışdı. Bu əlaqələrin intensiv xarakter alması Teymuri-Ağqoyunlu ittifaqının onların hər ikisi üçün ciddi təhlükə olması ilə bağlı olmuşdur. Qaraqoyunlu tayfa birliyinin güclənməsi, Qara Məhəmmədin Malatiya üçün təhdid yaratması Osmanlı dövlətini də narahat edirdi[21].

Qara Yusif Teymura qarşı mübarizə məqsədi ilə İldırım Bəyaziddən yardım istəmiş, Osmanlı sultanı yardım göstərəcəyini vəd etmişdi[22]. Qara Yusiflə Sultan Əhmədin yenilərək Osmanlı sarayına sığınması, İldırım Bəyazidin qaçqınların ona

---

[20] Хавафи. Ф.Муджмали-Фасихи.Перевод,предис.,примеч. и указатели Д.Й.Йусуповой.Ташкент, 1980, с.159; Эфендиев О.А.”Всеобщая история” Хафиза Абру как источник по истории Закавказья первой четверти XV в.-Источниковедческие разыскания, Тбилиси,1984, с.225

[21] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.154

[22]Nəvayi Ə.H.Teymurdan Şah İsmayıla qədər İranın tarixi sənədləri və məktubları.Tehran,1341(fars dilində), s. 25-26

təslim edilməsi ilə bağlı Teymurun tələbini rədd etməsi 1402-ci ildə Ankara savaşı ilə nəticələndi. Teymurun ölümündən sonra Şahruxun Şirvanşahlar və Ağqoyunlularla ittifaqından ehtiyatlanan Qara Yusif I Sultan Mehmedlə yaxınlaşmağı vacib hesab edərək ona məktub yazmış və öz elçisi Xacə Bəhram Naxçıvanini Osmanlı sarayına göndərmişdi[23]. I Sultan Mehmed və II Murad (1421-1451) Qaraqoyunlu dövləti ilə dostluq əlaqələrini qoruyub saxlasalar da, Teymurilərlə yeni toqquşmadan yayınmağa çalışmış və Şahruxun Azərbaycana yürüşləri zamanı Qaraqoyunlu dövlətinə fəal yardım göstərməmişdilər. 1435-ci ildə Təbriz yaxınlığında Teymurilər tərəfindən yenilərək Osmanlı ərazisinə sığınan Qara İsgəndərin orada qarətçilik törətməsi Osmanlı-Qaraqoyunlu münasibətlərində müəyyən gərginlik yaratsa da, bu münaqişə dinc yolla öz həllini tapmışdı[24].

Cahanşahın hakimiyyəti dövründə Qaraqoyunlu-Osmanlı münasibətləri daha da gərginləşmiş, tərəflər arasında elçilik mübadiləsi genişlənmişdir. II Murad Mövlana Şükrullah vasitəsi ilə Cahanşaha göndərdiyi məktubda onu “böyük sultan, ümmətlər boyunun sahibi, Tanrının dünyada kölgəsi, Türk, Ərəb və Əcəm sultanlarının sultanı” adlandırmış, Cahanşah isə Xacə Ziyaəddin Yusif vasitəsi ilə II Murada ünvanlanmış məktubunda “Bizim dostluq münasibətlərimiz və əlaqələrimiz qədim və əzəlidir, Tanrının köməyi ilə məzara qədər davam edəcəkdir”,-deyə bildirmişdir[25].

Sultan II Mehmedin hakimiyyəti dövründə Qaraqoyunlu-Osmanlı münasibətləri yüksələn xətt üzrə inkişaf etmiş, tərəflər arasında diplomatik əlaqələr xeyli güclənmişdir. Bu dövrdə tərəflərin yaxınlaşması Ağqoyun bəyliyinin qüvvətlənməsi ilə bağlı olmuş, Cahanşah Uzun Həsənə qarşı mübarizədə Sultan II Mehmeddən yardım istəmişdi. Cahanşah öz məktublarında II Mehmedə “oğlum”,-deyə müraciət etmiş, II Mehmed isə Cahanşaha “Ərəb və Əcəm xaqanlarının sultanı, Türk və Deyləm sultanlarının sahibi”, “yüksək məqamlı sultanlar sultanı əziz ata”,-deyə müraciət etmişdir[26].

Qaraqoyunlu dövləti ilə Gürcüstan hakimləri arasında münasibətlər müəyyən gərginliklə müşayiət olunmuş, heç də sabit qalmamışdır. 1412-ci ildə gürcü çarı Konstantin Qara Yusifə qarşı Şirvanşah I İbrahim və Şəki hakimi Seydi Əhmədlə ittifaqda savaşa qoşulmuş, lakin məğlub olaraq öldürülmüşdür. Konstantinin oğlu I Aleksandr (1412-1442) və vassalı Samsxe atabəyi İvane Qaraqoyunlu dövlətinin hakimiyyətini qəbul edərək illik bac vermək zorunda qaldılar. 1416-cı ildə Qara Yusif Gürcüstana yürüş edərək bəzi bölgələri nəzarəti altına almış, Axisqanı ələ keçirmişdi. Qaraqoyunlu şahzadələri arasındakı çəkişmələrdən istifadə edərək Gürcüstan hakimlərinin itaətdən çıxması Qaraqoyunlu hökümdarlarının ara-sıra bölgəyə yürüşlər etməsi ilə nəticələnərdi. Həsən bəy Rumlunun məlumatına görə, 1431-ci ildə Qara İsgəndər, 1440-cı və 1444-cü illərdə isə Cahanşah Gürcüstana hücum edərək gürcü knyazlarını itaətə məcbur etdilər[27].

---

[23] Yenə orada, s. 157-158
[24] Hoca Sadettin Efendi. Tacüt-təvarix, c.2. Haz. L.Parmaksızoğlu. İsbanbul, 1979, s. 137
[25] Nəvayi Ə.H.Teymurdan Şah İsmayıla qədər İranın tarixi sənədləri və məktubları., s.478; Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.163
[26] Yinanc M.H.Cihan-Şah. Islam Ansiklopedisi, c.III, İstanbul,1943,s.185
[27] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.133, 152; İsmail Aka. İranda türkmen hakimiyyəti (kara koyunlular devri). Ankara, 2001, s.26

Qaraqoyunlu-Misir Məmlük sultanlığı arasındakı münasibətlər XIV əsrin sonlarından etibarən yaranmağa başlamışdı. Regionda baş verən siyasi proseslər, bölgədə qüvvələr nisbəti və c. kimi amillərlə bağlı həmin münasibətlər heç də stabil olmamışdı. Misir sultanları Teymuri təhlükəsinə qarşı Qaraqoyunlulara dəstək vermək, Qaraqoyunlular isə güclənərkən Ağqoyunlulardan sipər kimi istifadə etməyə çalışmışdılar.

Qaraqoyunlu dövlətinin yaranmasından sonra Misir Məmlük sultanlığı Qaraqoyunlu təhlükəsinə qarşı Ağqoyunlularla ittifaqa daha çox meyl göstərməyə başladı. Qara Yusifin təhdidlərinə cavab olaraq 1420-ci ildə Qahirədə Qaraqoyunlulara qarşı savaş haqqında qərar verildi, Misir ordusu Suriyaya yürüşə başlamış, lakin Qara Yusifin qəfil ölümü ilə bağlı olaraq hücum dayandırıldı[28]. Qara Yusifin ölümündən sonra Qaraqoyunlu dövlətinin zəifləməsi Misir sultanlığı üçün bu təhlükənin aradan qalxmasına səbəb olmuşdu. Şahruxun dəstəyi ilə Ağqoyunlu bəyliyinin güclənməsi hətta bir müddət Qaraqoyunlu və Misir Məhmlük sultanlığı arasında yaxınlaşmaya da gətirib çıxarmışdı. Əbubəkr Tehraninin məlumatına əsasən, Qara İsgəndərlə Misir sultanı Məlik Əşrəf Barsbay arasında ittifaq bağlanmış, hətta Misir sultanı Cahanşaha qarşı mübarizədə Qara İsgəndərə yardım göstərmişldi[29].

1450-1451-ci illərdə Cahanşahın Ərzincanı Ağqoyunlulardan alaraq Malatiyaya qədər irəliləməsi Qaraqoyunlularla Misir sultanı Çaxmaq arasında müəyyən gərginliyə səbəb olsa da, məsələ diplomatik yolla öz həllini tapdı. Beləliklə, bölgədə qüvvələr nisbətindən asılı olaraq Qaraqoyunlu dövləti ilə Misir Məmlük sultanlığı arasında münasibətlər dəyişkən xatakter daşımış, lakin açıq qarşıdurma səviyyəsinə yüksəlməmişdi[30].

XIV əsrin II yarısından etibarən fəal siyasət meydanına cəlb olunan Qaraqoyunlu-Ağqoyunlu münasibətləri Qaraqoyunlu dövlətinin süqutuna qədər gərgin hərbi-siyası qarşıdurma şəraitində keçdi. Vahid soykök birliyinə rəğmən nüfuz dairəsi, qənimət, otlaqlar uğrunda savaşlar bir an belə səngiməmişdi. Qaraqoyunlular və Osmanlı dövləti ilə kəskin mübarizədə olan Ağqoyunlular Teymurla ittifaqa girməklə Diyarbəkirdə möhkəmlənməyi bacarmışdılar. Teymurun ölümündən sonra qüvvələr nisbətinin Qaraqoyunluların xeyrinə dəyişməsinə baxmayaraq Qaraqoyunlu-Ağqoyunlu qarşıdurması səngimədi, 1406-cı ildə Qara Yusif Mardin yaxınlığında savaşdan sonra Qara Osmanla sülh bağladı[31]. Qara Yusif Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra da Şahrux və Misir sultanlığından dəstək alan Ağqoyunlularla mübarizə davam etmişdi. Şahruxun 1420-1421-ci illərdə Azərbaycana yürüşündə ona yardım edən Qara Osman 1421-ci ildə oğlu Əli bəyin Azərbaycan hakimi taxtına əyləşməsinə nail olsa da, Şahruxun Herata qayıtmasından sonra Qaraqoyunlular Əli bəyi Təbrizdən qovub çıxardılar [32]. Qara İsgəndərin hakimiyyəti dövründə Qaraqoyunlu-Ağqoyunlu qarşıdurması daha da kəskinləşmişdi. 1435-ci ildə Şahrux tərəfindən Təbriz yaxınlığında məğlub olaraq Anadoluya qaçan Qara İsgəndər

[28] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.179-180
[29] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 92-93
[30] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.183
[31] Yenə orada, s.111
[32] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 70

Ərzrum yaxınlığında Qara Osmanı məğlub etmiş və savaşda aldığı yaradan Qara Osman Ərzrumda vəfat etmişdi[33].

Cahanşah Diyarbəkr uğrunda Cahangir Mirzə ilə Uzun Həsən arasındakı qarşıdurmada birincini dəstəkləsə də, 1453-cü ildə Diyarbəkr hakimliyi Uzun Həsənin nəzarəti altına düşmüşdü. Uzun Həsən isə öz növbəsində Cahanşahın qiyamçı övladları Həsən Əli və Pirbudağın atalarına qarşı dirənişinə hər vasitə ilə yardım göstərirdi. Daxili çəkişmələri nəzarətə aldıqdan sonra Cahanşah Ağqoyunlularla məsələni qəti həll etmək üçün səfərə çıxmış, lakin 1467-ci ilin payızında Muş yaxınlığında, Sancaq adlı yerdə Ağqoyunluların tələsinə düşərək öldürülmüşdü. Cahanşahın ölümü ilə Qaraqoyunlu dövləti faktiki olaraq süqut etdi. 1468-ci ildə Uzun Həsənin Qaraqoyunlu Həsən Əlini məğlub edərək Təbrizi tutması ilə Qaraqoyunlu dövlətinin süqutu rəsmiləşmiş oldu.

## *Ağqoyunlu dövləti*

Oğuz-türkman kökənli olan Ağqoyunluların Oğuz xaqanının oğlu Gün xanın dörd oğlundan biri Bayandur xanın varisləri olması heç bir şübhə doğurmur. Əbubəkr Tehrani Uzun Həsənin 52-ci babası Bayandur xan haqqında yazır: "O öz padşahlığı dövründə bütün İran, Turan, Rum, Şam, Misir, Əfrənc, Xətay və Dəşti-Qıpçağı tamamilə fəth etmişdi. Becənag onun kiçik qardaşı idi və onu Sayramda öz canişini təyin etdi, özü isə Qarabağ qışılağına və Göyçə dəniz yaylağına yollandı". Monqol yüürüşləri zamanında monqol ağalığına boyun əyməyən bir çox oğuz-türkman tayfaları  Azərbaycandan Anadolu, Suriya, İraq ərazilərinə köç etmişdilər. Hülakü səltənətinin çöküşündən sonra Qaraqoyunlular kimi Ağqoyunlular da məhz həmin bölgələrdə siyasi-hərbi güc mərkəzinə çevrilərək, Azərbaycan taxtı uğrunda mübarizəyə qalxmışdılar.

Ağqoyunlu tayfa birliyinə bayandur, bayat, əfşar, pornak, mosullu, dögər, çepni, inallı kimi aparıcı boylarla yanaşı, dodurğa, karkın, bəgdili, çavundur, izzəddin hacılı, həmzə hacılı, süleyman hacılı və s. kimi tayfalar da daxil olmuşdur. Qaraqoyunlu dövlətinin süqutundan sonra bu konfederasiyaya daxil olan tayfaların da böyük bir qismi Ağqoyunlu hakimiyyətini qəbul edərək bu dövlətə xidmətlərini davam etdirmişlər.

Əbubəkr Tehraninin təqdim etdiyi Ağqoyunluların nəsil şəcərəsində adı keçən tayfa başçılarının əksəriyyətinin tarixi şəxsiyyət olması bəlli deyildir. Həmin şəcərədə qeydə alınan Turəli bəy real tarixi şəxsiyyət olmuş və o, XIV əsrin əvvəllərindən etibarən Ağqoyunlu xanədanına başçılıq etmişdir. Turəli bəy Qazan xanın (1295-1304) Suriya yürüşündə iştirak etmiş və göstərdiyi igidliyə görə mükafatlandırIılmışdı[34]. XIV əsrin 40-cı illərindən etibarən Ağqoyunlularla Trabzon yunan dövləti arasında gərgin münasibətlər yaranmış, Trabzonda baş verən daxili çəkişmələrdən istifadə edən Turəli bəy onlara qarşı dəfələrlə yürüşlər təşkil etmişdi. Bu faktı Əbubəkr Tehrani ilə yanaşı Bizans salnaməçiləri Mixail Panaret, Mixail Duka və digərləirinin "Xronika"ları da təsdiq edir. Ağqoyunluların Trabzona qarşı

---

[33] Yenə orada, s. 80

[34] Yenə orada, s.41

1352-ci ildə təşkil etdiyi yürüş daha uğurlu olmuş və qələbə qazanan Turəli bəyin oğlu Qutlu bəy Trabzon imperatoru III Aleksisin qızı Marya (Dəspinə) ilə evlənmişdi[35]. Ağqoyunlularla Trabzon hökmdarları arasında qohumluq əlaqələri sonralar da davam etmiş, Qara Osman və Uzun Həsən də Trabzon şahzadələri ilə nikah qurmuşdular. 1360-1389-cu illərdə Ağqoyunlu xanədanına başçılıq etmiş Qutlu bəyin siyasi fəaliyyəti haqqında qaynaqlarda, demək olar ki, heç bir tutarlı məlumata rast gəlinmir. Qutlu bəyin ölümündən sonra onun oğlanları Əhməd, Pirəli və Qara Osman arasında xanədana rəhbərlik uğrunda kəskin mübarizə başlanmış, bu isə Ağqoyunluların bölgədə siyasi durumuna ağır təsir göstərmişdi. Qara Osman bir müddət qardaşları Əhməd və Pirəli tətəfindən həbs olunsa da, Qara Yusifin Mardin ətrafında Ağqoyunluları məğlub etməsindən sonra həbsdən azad edilmiş və məhz onun igidliyi nəticəsində Qaraqoyunlular məğlubiyyətə uğradılmış və tərəflər arasında sülh bağlanmışdı[36].

XIV əsrin 90-cı illərində Ağqoyunlular öz siyasi rəqiblərinə qarşı mübarizədə Sivas hakimi Qazi Bürhanəddinlə yaxınlaşmış, hətta onun 1394-1395-ci illərdə Ərzincan yürüşlərində iştirak etmişdilər. Az sonra Qazi Bürhanəddinlə Ağqoyunlular arasında münaqişə yaranmış və 1398-ci ildə Qara Osman onu qətlə yetirdikdən sonra Ağqoyunlu xanədanına rəhbərliyi (1398-1435) tamamilə öz əlinə almışdı. Qara Osman XIV əsrin sonu-XV əsrin əvvəllərində regionda hərbi-siyasi qüvvələr balansını düzgün dəyərləndirərək, Qaraqoyunlu-Osmanlı birliyinə qarşı Teymurilər dövləti ilə ittifaq qurmuşdu. İldırım Bəyazidin təhdidi ilə üzləşən Qara Osman Əmir Teymurun xidmətinə keçərək, onun bir çox yürüşlərində iştirak etdi[37]. 1402-ci ildə baş vermiş Ankara savaşında Qara Osman qardaşları Əhməd bəy və Pir Əli bəylə birlikdə Teymurun müttəfiqi kimi iştirak etmişdilər. Bu hadisədən sonra Ağqoyunlu bəyliyi Diyarbəkr və ətraf torpaqlarda real güc sahibinə çevrilmiş, Qara Osman öz adından sikkə kəsdirərək bəyliyi xeyli möhkəmləndirmişdi. 1405-ci ildə Teymurun ölümündən sonra hərbi-siyasi durumun Ağqoyunluların əleyhinə dəyişməsinə rəğmən Qara Osmanla Qara Yusif arasında qarşıdurma bir an belə səngiməmiş, tərəflər arasında dəfələrlə savaşlar baş vermişdir. Qara Osman əsas siyasi rəqibləri olan Qaraqoyunlulara qarşı Teymuri hökmdarı Şahrux və Şirvanşahla müttəfiqlik münasibətləri yaratmağa müvəffəq oldu. 1421-ci il Alaşkerd savaşında Ağqoyunlular Şahruxun tərəfində vuruşmuş və Şahrux Herata qayıdan zaman Təbrizin idarəsini Qara Osmanın oğlu Əli bəyə versə də, az sonra Qaraqoyunlular onu Təbrizdən sıxışdırıb çıxarmışdılar[38]. Qara İsgəndərin hakimiyyəti dövründə də Qaraqoyunlu-Ağqoyunlu qarşıdurması səngiməmişdi. 1435-ci ildə Qara İsgəndər Ərzurum yaxınlığında Ağqoyunlularla savaşa girdi və bu savaşda Qara Osman ağır yaralanaraq dünyasını dəyişdi[39]. Onun ölümündən sonra oğlanları Əli bəy (1435-1438), Mardin hakimi Həmzə Mirzə, Ərzincan və Kəmax hakimi Yaqub Mirzə arasında mübarizə getmiş və 1444-cü ildən Ağqoyunlu bəyliyinə Əli bəyin oğlu Cahangir Mirzə sahib olmuşdu. O, bir tərəfdən qardaşları, digər tərəfdən Qaraqoyunlularla mübarizə

[35] Yenə orada, s.40
[36] Yenə orada, s.52
[37] Yenə orada, s.55
[38] Yenə orada, s.68-70
[39] Yenə orada, s. 80

aparmış, hətta Cahanşahın himayəsini qəbul etməli olmuş və 1453-cü ildə Diyarbəkr Uzun Həsənin əlinə keçmişdi.

1453-cü ildə Teymurilərə qarşı yürüşdə olan Cahanşah Cahangir Mirzəyə yardım göstərə bilmədi. Qərbi İranı Teymurilərin əlindən almağı bacaran Cahanşah 1455-ci ildə Bağdada qayıtdıqdan sonra Cahangir Mirzəyə yardım məqsədi ilə Rüstəm Tərxan oğlunun başçılığı altında Qaraqoyunlu ordusunu Uzun Həsənə qarşı savaşa göndərdi. 1457-ci ildə Mardin yaxınlığında Uzun Həsən Qaraqoyunlu ordusunu məğlubiyyətə uğratdı[40]. Həmin ildə Teymurilərə qarşı növbəti yürüşə hazırlaşan Cahanşah rəqibi Uzun Həsənə qarşı mübarizəni davam etdirə bilmədi. Bu qələbədən sonra Cahangir Mirzə Ağqoyunlu taxtına iddiasından əl çəkmək və oğlunu Uzun Həsənin sarayına girov göndərmək şərti ilə əfv olundu[41].

Cahanşahın Teymurilərə qarşı yürüşündən yararlanan Uzun Həsən 1457-ci ildə Həsən-Keyf qalasını, 1459-cu ildə Gürcüstanın, 1460-cı ildə Qarahisarı, 1461-ci ildə isə Qoyluhisar qalalarını ələ keçirmişdi[42].

XV əsrin 50-ci illərinin sonu-60-cı illərdə hərbi-siyasi durum Ağqoyunlu bəyliyinin əleyhinə dəyişdi. Belə ki, Cahanşahın Teymuri Əbu Səidlə Herat müqaviləsi bağlaması nəticəsindəAğqoyunlular ənənəvi müttəfiqlərini itirmiş,1460-1461-ci illərdə Trabzon,1464-1465-ci illərdə Qaraman məsələsi ilə bağlı Ağqoyunlu-Osmanlı münasibətləri gərginləşmiş və Uzun Həsən üç böyük təhlükə qarşısında qalmışdı.

Şərq səfərindən uğurla qayıdan Cahanşah 1463-1465-ci illərdə oğlanlarının ona qarşı qiyamını yatırıb daxili çəkiımələri nizama saldıqdan sonra h.872-ci ilin yazında (1467-ci il) Təbrizdən Diyarbəkrə – Ağqoyunlulara qarşı yürüşə başladı[43]. Payızın əvvəlində Muş düzündə Çapakçur ərazisinə çatan Qaraqoyunlu ordusunun ön hissəsinin Uzun Həsənin oğlu Sultan Xəlil tərəfindən məğlib edilməsindən sonra Cahanşah qışın yaxınlaşması səbəbindən yürüşü təxirə salaraq, ordunun əsas hissəsini geriyə göndərdi, az bir dəstə ilə Səncəq adlı yerdə istirahət etmək qərarına gəldi. Əlverişli məqamdan istifadə edən Uzun Həsən 1467-ci ilin noyabr ayının 10-da Muş düzündə Qaraqoyunluları məğlub etdi və Cahanşah öldürüldü[44]. Beləliklə1468-ci ildə şahzadə Sultan Xəlilin Təbrizə daxil olması ilə Qaraqoyunlu dövlətinin varlığına son qoyuldu və Azərbaycanda Ağqoyunlu-Bayandurlu sülaləsinin hakimiyyəti dövrü başlandı.

Cahanşahın qisasını almaq bəhanəsi ilə Teymuri Əbu Səidin 1468-ci ilin yayında Ağqoyunlu dövlətinə qarşı yürüşü də uğursuzluqla nəticələndi. Uzun Həsənin diplomatik bacarığı ilə Şirvanşah Fərrux Yasar əzəli müttəfiqləri Teymurilərdən üz döndərmiş[45] tərəflər arasında məsələni sülh yolu ilə həll etmək də mümkün olmamışdı. Uzun Həsən Ərdəbil hakimi Şeyx Heydər və Fərrux Yasarla ittifaq quraraq 1469-cu ildə Əbu Səidin ordusunu məğlub etmiş, Şahruxun nəvəsi

---

[40] Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.196
[41] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 152
[42] Шабиев Б.Ш. Внешняя политика Узун Хасана. (Взаимоотношения с Османской империей). Баку, 2012 с.66
[43] Шарафхан ибн Шамсаддин Библиси. Шараф-наме. т. II. Пер., персид., примеч. и прилож. Е.И.Василеевой. М., 1976, с. 130
[44] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 222; Nəvayi Ə.H.Teymurdan Şah İsmayıla qədər İranın tarixi sənədləri və məktubları., s.130
[45]Шабиев Б., Ш. Внешная политика Узун Хасана., с.74

Yadigar Məhəmmədi Xorasana hakim təyin etməklə Teymuri təhlükəsini də aradan qaldırmışdı.

Paytaxtı Təbriz olan Ağqoyunlu dövləti, Ərdəbil istisna olmaqla bütün Cənubi Azərbaycan torpaqlarını, Qarabağı (Şimaldan Kür çayına qədər), dövlətə malik olmayan, amma onların məskən tutduqları ərazini, İraqe-Ərəb, İraqe-Əcəm, Luristan, Fars, Kirman vilayətlərini, Şərqi Anadolu torpaqlarını əhatə etməklə böyük bir imperatorluğa çevrilmiş, bəzi vaxtlarda Tiflis daxil olmaqla Şərqi Gürcüstanı da əhatə etmişdir.

Uzun Həsən yaratdığı imperatorluğun iqtisadi potensialını gücləndirmək, sənətkarlığın və ticarətin, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsi üçün ciddi addımlar atmış, əhalinin sosial-iqtisadi durumunu yüngülləşdirmək məqsədi ilə xüsusi "Qanunnamə" hazırlatdırmışdı.Vergi və mükəlləfiyyətlər sisteminin nizamlanmasına yönəlmiş bu qanunvericilik aktı orta əsrlər Şərqinin ən ədalətli qanunları kimi tanınmış, hətta Səfəvilər dövləti və Osmanlı imperatorluğunun tərkibinə daxil olan bəzi vilayətlərdə də uzun müddət Uzun Həsənin həmin "Qanunnamə"si cuzi dəyişikliklə qüvvədə saxlanılmışdı[46]. Tarixçi Şərəf xan Bidlisi yazırdı ki, həqiqətən o, ədalətli hökmdar olub, rəiyyətin himayədarı idi. O, rəiyyətdən elə bir vergi yığma qaydası müəyyən etmişdi ki, indi də İraq, Fars və Azərbaycan hökmdarları həmin qaydalara əməl edirlər[47]. Uzun Həsən elm, mədəniyyət və dinin tərəqqisinə xüsusi qayğı ilə yanaşmış, böyük tikinti quruculuq işləri aparmış, Quranı da türk dilinə tərcümə etdirmişdi. Həsən padşahı böyük ehtiramla anan Həsən bəy Rumlu yazır: "O, şövkət sahibi olan bir padşah idi və sözlə ifadəsi mümkün olmayan bir ədalətə malik idi"[48].

### *Ağqoyunlu-Osmanlı münasibətləri*

Ağqoyunlu dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən birini Osmanlı imperatorluğu ilə qarşılıqlı münasibətlər təşkil etmişdir. Bu münasibətlər XIV əsrin sonu–XV əsrin əvvəllərindən etibarən təşəkkül tapmağa başlamış və əsasən qarşıdurma xarakteri ilə seçilmişdi. Belə ki, Ağqoyunlu bəyliyinin əsas hərbi-siyasi rəqibləri olan Qaraqoyunluların Osmanlı dövləti ilə yaxınlaşması həmin ittifaqa qarşı Ağqoyunlu–Teymuri birliyinin yaranması ilə nəticələnmişdi. XV əsrin I yarısında xırda toqquşmalar istisna olmaqla Ağqoyunlu bəyliyi ilə Osmanlı dövləti arasında hələ ciddi qarşıdurma baş verməmişdi. 1453-cü ildə II Mehmedin Konstantinopolu fəth etməsindən sonra Osmanlı dövlətinin həm şərq, həm də qərb istiqamətində geniş miqyaslı fəthlərə başlaması tərəflər arasındakı münasibətlərin daha da gərginləşməsinə səbəb oldu. Həmin şəhərin fəthindən sonra ənənəvi Şərq-Qərb ticarətində nəzarəti ələ keçirən Osmanlı dövlətinin öz gömrük siyasətini sərtləşdirməsi, Cənubi Qafqaz və İranın əsas ipəkçilik mərkəzlərini, Təbriz-Bursa, Təbriz-Trabzon və s. beynəlxalq tranzit ticarət yollarını tutmaqla İran körfəzinə (Kəngər köfrəzi) çıxmaq cəhdləri Ağqoyunlu–Osmanlı qarşıdurmasını qaçılmaz etdi.

---

[46] Həsən padşah "Qanunnamə"sinin bir hissəsi hazırda Türkiyə respublikasının Başbakanlıq arxivində saxlanılır// Шабиев Б., Ш. Внешная политика Узун Хасана., с.192-247

[47] Шарафхан ибн Шамсаддин Библиси. Шараф-наме. т. II., с.421-422

[48] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.302-303

Ağqoyunlu bəyliyi ilə Osmanlı dövləti arasında ilk ciddi qarşıdurma Trabzon uğrunda mübarizə ilə başlandı. Hərbi gücü zəif olsa da, strateji baxımdan mühüm mövqedə yerləşən Trabzon yunan dövləti Qara dəniz ticarəti ilə məşğul olan dövlətlərin Azərbaycan, İran, Mərkəzi Asiya, Hindistan və Çinlə əlaqələrində əsas qovşaq olmaqla vasitəçi ticarətdən böyük iqtisadi gəlirlər əldə edirdi.

Hələ Qutlu bəy və Qara Osmanın dövründə Ağqoyunlu ilə Trabzon arasında yaranmış qohumluq münasibətləri Uzun Həsənin dövründə də davam etmiş və o, IV Kaola İohanın qızı Dəspinə xatunla (xristian adı Teodora və ya Katerina – red.). 1457-1458-ci illərdə evlənməklə həmin ittifaqı möhkəmləndirmişdi. Ağqoyunlu və Trabzon hakimləri həmçinin XV əsrin 50-60-cı illərində Roma papasının təşəbbüsü ilə yaradılmış "antiosman" liqasının üzvləri idilər. Trabzon hakimi Ağqoyunlu bəyliyinin yardımı ilə 1456-cı ildən illərlə xərac verməyə məcbur olduğu Osmanlı asılılığından xilas olmağa çalışırdı. 1459-1460-cı illərdə Uzun Həsənin Trabzon və ətrafındakı qalaların Ağqoyunlulara verilməsi tələbi ilə Osmanlı sarayına göndərdiyi Murad bəy və Xurşud bəyin elçilikləri rədd cavabı alsalar da, 1460-cı ildə göndərilmiş növbəti elçilik Trabzonun Ağqoyunlu bəyliyinə güzəştə gedilməsinə nail olmuşdu. Bu hadisələrə toxunan Əbu Bəkr Tehrani yazır: "Rum sultanı...öz əmirlərinin yanına adam göndərdi ki, onları Trabzon tərəfindən geri çəksinlər və ərazini Sahibqıranın (Mehmed Fatehin – red.) təyin etdiyi adamların ixtiyarına versinlər"[49]. 1460-cı ildə Moreya səfərinə hazırlaşan Fateh manevr edərək səfər zamanı arxada təhlükəli rəqib qoymamaq üçün Trabzonu müvəqqəti Ağqoyunlulara güzəştə getmişdi. Moreya səfərini uğurla başa vuran osmanlı sultanı 1461-ci ildə Trabzon məsələsini qəti həll etmək məqsədi ilə səfərə çıxdı. 1461-ci ildə Qoyluhisar yaxınlığında Osmanlıların öncül dəstələri məğlub edildikdən sonra tərəflər arasında sülh danışıqları başlandı. Ağqoyunlular tərəfindən bu danışıqlara diplomatik bacarığı ilə məşhur olan Saray xatun göndərildi. Əldə olunmuş Yassıçəmən barışığına əsasən, Ağqoyunlu-Osmanlı savaşı dayandırılsa da, Saray xatunun bütün cəhdlərinə rəğmən Trabzonu xilas etmək mümkün olmadı. Saray xatunun "Trabzon nədir ki, sultan böyük bir ordu ilə əziyyətə qatlaşıb yola çıxır",-sualına Mehmed Fateh belə cavab vermişdi: "Əlimizdəki qılınc İslamın qılıncıdır. Məqsəd qala fəth etmək deyil, bu yeri müsəlmanlara Vətən yapmaqdır. Bu yolda nə qədər əziyyət çəksək yenə azdır". Əbubəkr Tehrani də bu amili qabardaraq yazır: "Sultan Məhəmmədin Trabzon üzərinə qəzavata getməsi xəbəri Ağqoyunlular arasında yayılanda, Sahibqıran onlara basqın etməyi öz qoşununa qadağan etdi"[50].

Trabzonun fəthindən sonra, Ağqoyunlu bəyliyi öz qohumu və müttəfiqi ilə yanaşı, Qara dənizə yeganə çıxışından, bu yolla Avropadan odlu silah gətirmək imkanından məhrum oldu və Ağqoyunlu-Osmanlı münasibətləri daha da gərginləşdi, Kiçik Asiyanın cənub-qərbində yerləşən Qaraman əmirliyi Ağqoyunlu bəyliyi ilə Osmanlı dövləti arasında ziddiyyətlərin düyün nöqtəsinə çevrildi. Aralıq dənizin sahilində yerləşən Qaraman ərazisi Ağqoyunlular üçün böyük hərbi-strateji və iqtisadi əhəmiyyətə malik idi. Qaraman "antiosman" liqası çərçivəsində Ağqoyunlu bəyliyinin müttəfiqi olmaqla yanaşı, Avropa ölkələri ilə ticarət əlaqələri saxlamaq və

[49] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 206
[50] Yenə orada, s.208

artilleriya, odlu silah əldə etmək üçün yeganə çıxış məntəqəsi hesab olunurdu. Qaraman ərazisi həmçinin Osmanlı dövləti üçün də xüsusi əhəmiyyət daşıyırdı. II Mehmet Qaraman əmirliyini tutmaqla Osmanlılara qarşı yaranmış ittifaq qüvvələrinin birləşməsinə mane olmağa və On Asiyada mövcud olan xırda dövlətlərin də aradan qaldırılmasına çalışırdı[51].

1464-cü ilin avqust ayının 4-də Qaraman əmiri İbrahimin vəfatı ilə onun varisləri arasında başlanmış çəkişmələr Qaraman böhranını kəskinləşdirdi. Atalarının vəsiyyəti üzrə Qaraman taxtına çıxan İshaqa qarşı mübarizəyə başlayan qardaşları Pir Əhməd və Qasım Osmanlıların yardımı ilə onu hakimiyyətdən saldılar. Uzun Həsənin köməyi ilə İshaq bəy yenidən hakimiyyətə qayıtsa da, qardaşları 1465-ci ildə yenidən Osmanlıların dəstəyi ilə onu hakimiyyətdən devirdilər. 1468-ci ilin yazında Osmanlı ordusu Qaraman ərazisini ələ keçirdikdən sonra Qaraman şahzadələri Ağqoyunlu sarayına sığındılar. Həmin ildə Qaraqoyunlulara və Teymuri Əbu Səidə qarşı mübarizə səbəbindən Uzun Həsən Qaraman hadisələrinə fəal müdaxilə edə bilmədi. Beləliklə, Osmanlı ordusunun Qaraman ərazisini tutması nəticəsində Ağqoyunlu dövləti öz müttəfiqini və Aralıq dənizinə çıxış imkanlarını itirmiş oldu[52].

1469-1471-ci illərdə Həsən padşah daxili sabitiliyi bərpa edərək əhali arasında yeni sülalənin mövqeyini gücləndirdikdən sonra “antiosman” liqasının Avropadakı tərəfdaşları, xüsusilə də Venesiya respublikası ilə diplomatik danışıqları genişləndirdi. Tərəflər arasında əldə olunmuş razılığa əsasən, Ağqoyunlu ordusu Qaraman istiqamətində Aralıq dənizinə çıxışı bərpa etməli, liqanın Avropa tərəfdaşları isə P.Moçineqonun başçılığı altında artilleriya və odlu silahları donanma vasitəsilə yardıma göndərməli və müttəfiqlər Aralıq dənizi sahilində birləşdikdən sonra Osmanlı dövlətinə qarşı birgə müharibəyə başlamalı idilər. Razılaşmaya uyğun olaraq Ağqoyunlu ordusu Qaramana daxil olaraq Qaraman şahzadələri Pir Əhməd və Qasım bəylə birləşib Aralıq dənizinin Qaraman sahillərinə çıxmağa nail oldular[53].

Ağqoyunlu ordusunun bu uğurundan bəhrələnən Venesiya respublikası Osmanlı dövləti ilə separat danışıqlara girərək vəd olunan yardımı ləngitdi. Yaranmış vəziyyətdən məharətlə istifadə edən altmış minlik Osmanlı ordusu şahzadə Mustafanın rəhbərliyi altında 1472-ci ildə Beyşehir yaxınlığında Ağqoyunlu ordusunu məğlub etdi, Aralıq dənizi sahilində çox çətinliklə əldə olunan çıxış yenidən itirilmiş oldu. Beləliklə də, Avropa ölkələrinin ikili standartları, məkirli oyunu nəticəsində iki böyük türk-müsəlman dövləti savaş meydanında baş-başa qaldı.

1473-cü il avqustun 1-də Malatya yaxınlığında baş verən savaşda Həsən padşahın bacarıqlı taktikası nəticəsində Xasmurad paşanın başçılıq etdiyi Osmanlı ordusu Fərat çayının sol sahilində ağır məğlubiyyətə uğradıldı. Savaşdan sonra böyük itkilərlə üzləşdiyindən Sultan II Mehmedin barışıq təklifi də Həsən padşah tərəfindən rədd edildi. Bu uğurdan ruhlanan Ağqoyunlu ordusu geri çəkilməkdə olan Osmanlı ordusunu tam məğlub etmək üçün hərəkətə keçdi. 1473-cü il avqustun 11-də Tərcan çayının sahilində, Üçağızlı (Otluqbeli) adlı yerdə baş vermiş həlledici savaşda artileriya və odlu silahla təchiz olunmuş Osmanlı ordusu qələbə çaldı.

---

[51] Mahmudov Y. Azərbaycan diplomatiyası, Bakı, s.85-86
[52] Yenə orada, 86-87
[53] Yenə orada, s. 133

Bu savaşdan sonra Ağqoyunlu və Avropa ölkələri arasında Osmanlı dövlətinə qarşı birgə müharibə haqqında danışıqlar davam etsə də, istənilən nəticə əldə olunmadı. Hakimiyyətinin son illərində Həsən padşah daha çox ölkədaxili problemlər, hərbi əyanların qiyamlarının yatırılması məcburiyyətində qalmışdı. XV əsrin son rübündə lokal münaqişələr istisna olmaqla Ağqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında münasibətlər əsasən dinc xarakter daşımağa başladı.

### *Azərbaycanın Qərbi Avropa ölkələri ilə əlaqələri*

Azərbaycanın Avropa ölkələri ilə iqtisadi-ticarət əlaqələri XIII əsrdən başlasa da, bu münasibətlərin hərbi-siyasi və diplomatik xarakter alması XV əsrin ortalarına təsadüf edir. Bu ilk növbədə Bizansın süqutu və Osmanlı dövlətinin Qərb və Şərq istiqamətində genişmiqyaslı fəthləri, beynəlxalq əhəmiyyətli tranzit ticarət yollarına nəzarəti ələ keçirmək planları və ağır gömrük siyasəti ilə bağlı olmuşdur.

Azərbaycanın böyük siyasətə cəlb olunmasında həm Ağqoyunlu, həm də Avropa dövlətlərinin hərbi-siyasi və iqtisadi maraqları əsas amil rolunu oynamışdır. Belə ki, Konstantinopolun fəthindən sonra Osmanlı dövlətinin Qərb istiqamətində genişlənmə siyasəti Avropa dövlətləri üçün ciddi təhlükəyə çevrilmişdi. Digər tərəfdən, Osmanlı dövlətinin Aralıq və Qara dəniz sahillərində Avropa dövlətlərinə məxsus ticarət faktoriyalarını ələ keçirərək Şərq-Qərb ticarətində vasitəçi missiyasına sahib çıxması, gömrük rüsumlarını mütəmadi qaldırması Qərb tacirləri, xüsusilə də Venesiya və Genuyanın iqtisadi maraqlarına ciddi zərbə vurmuşdu.

Osmanlı dövlətinin ərazilərini Şərq istiqamətində genişləndirməyə, Azərbaycan ərazisindən keçən mühüm ticarət marşrutlarını, əsas ipək istehsalı mərkəzlərini ələ keçirməyə cəhd etməsi Ağqoyunlu dövlətinin də hərbi-strateji və iqtisadi maraqları üçün ciddi təhdidə çevrilmişdi.

Konstantinopolun süqutundan dərhal sonra, 1453-cü ilin sentyabr ayının 30-da Roma Papası V Nikolay xüsusi bulla verərək Avropa ölkələrini Osmanlı dövlətinə qarşı xaç yürüşü təşkil etməyə çağırdı və bu məqsədlə genişmiqyaslı fəaliyyətə başladı[54]**.** Papanın bütün cəhdlərinə rəğmən aralarında ciddi ixtilaflar olan Avropa dövlətlərini bir araya gətirmək baş tutmadı. Roma papaları III Kallikst (1455-1458) və II Piy (1458-1464) Osmanlı dövlətinə qarşı Şərq və Qərb dövlətlərindən ibarət "antiosman" liqası yaratmaq ideyasını gündəmə gətirdilər. 1455 və 1458-ci illərdə iki dəfə Papalığın elçisi kimi Şərq ölkələrinə göndərilən Boloniyalı Lüdovikin apardığı danışıqları nəticəsində Ağqoyunlu bəyliyi, Qaraman əmirliyi, Trabzon və gürcü knyazlarını həmin liqaya cəlb etmək haqqında razılıq əldə olundu. Liqanın qərb tərəfdaşları arasındakı ciddi çəkişmələr üzündən koalisiya üzvləri real addım ata bilmədilər. Bundan istifadə edən II Mehmed 1461-ci ildə Trabzonu fəth etməklə Qara dəniz sahilində öz mövqeyini daha da möhkəmləndirdi.

Venesiya respublikası ilə Osmanlı dövləti arasında müharibənin başlanmasından sonra (1463-1479) "antiosman" liqasının yaradılma təşəbbüsü Venesiyanın tərəfinə keçdi. Trabzonun fəthindən sonra öz qohumu, müttəfiqi və Qara dənizə çıxış

---

[54] Yenə orada, s. 100

imkanlarını itirən Ağqoyunlu bəyliyi də Avropa ölkələri ilə diplomatik əlaqələrini genişləndirməyə başladı.

1464-cü ildə Ağqoyunlu və Venesiya arasında Osmanlı dövlətinə qarşı bağlanmış müqaviləyə əsasən, 1465-ci ilin yazında Venesiya donanması dənizdən, 60 minlik Ağqoyunlu ordusu isə qurudan müharibəyə başlamalı, hər iki tərəfin razılığı olmadan sülh imzalanmamalı idi[55]. XV əsrin 60-ci illərində Ağqoyunlu sarayı Venesiya ilə yanaşı Papalıq, Kipr, Rodos, Macarıstan, Albaniya və s. dövlətlərlə də diplomatik əlaqələr yaratmış, Qərblə birbaşa ticarət əlaqələrini bərpa etmək, artilleriya, odlu silah və mütəxəssislər əldə etməyə səy göstərmişdi. XV əsrin 60-ci illərində liqanın bütün danışıqlarına rəğmən Osmanlıya qarşı ciddi bir addım ata bilmədi. Əksinə, 1468-ci ildə II Mehmed Qaraman əmirliyini də fəth etməklə müttəfiqlərin Aralıq dənizi sahilində birləşmə şanslarını da pozmağa müvəffəq ola bildi. 1467-1469-ci illərdə isə Uzun Həsən əsas diqqətini Qaraqoyunlu dövləti və Teymuri Əbu Səidlə mübarizəyə yönəltdi. Şərqdən gözlənilən təhlükəni aradan qaldırdıqdan, Azərbaycanda daxili sabitliyi bərpa etdikdən sonra Həsən padşah XV əsrin 70-ci illərində Avropa ölkələri ilə diplomatik əlaqələri daha da genişləndirdi. Aparılan danışıqlar nəticəsində Ağqoyunlu və Venesiya arasında Osmanlılara qarşı yeni ittifaq bağlanmış, 1472-ci ildə savaşa başlamaq planlaşdırılmışdı. Aralıq dənizinə çıxması nəzərdə tutulan Ağqoyunlu ordusuna liqa üzvləri – Venesiya, Neapol, Papalıq, Kipr, Rodos, Macarıstan, Burqundiya və digər Avropa dövlətləri hərbi donanma vasitəsi ilə yardım göstərməli, artilleriya və odlu silah çatdırmalı idilər. 1472-ci ildə Ağqoyunlu ordusu Aralıq dənizinin Qaraman sahillərinə çıxsa da, Qərb müttəfiqləri bilərəkdən yardımı gecikdirdilər və 1472-1473-cü illərdə Ağqoyunlular Osmanlılarla savaşda məğlub oldular.

1474-1475-ci illərdə Ağqoyunlu sarayı ilə Venesiya arasında aparılan danışıqlar da Osmanlılara qarşı real addımlar atmaq baxımından uğur gətirmədi.

Ağqoyunlu sarayı ilə Qızıl Orda dövləti və Moskva knyazlığı arasında da diplomatik əlaqələr yaranmışdı. 1474-cü ildə Qızıl Orda xanı Əhməd xanın göndərdiyi 200 nəfərlik böyük elçi heyəti, 1475-ci ildə Moskva knyazı III İvanın elçisi Marko Rosso Ağqoyunlu sarayında olmuşdular. Bunun şahidi olan A.Kontarini yazır: ”Yola düşməzdən bir gün əvvəl yenə də Uzun Həsənin sarayına getmişdik. Moskva dövləti tərəfindən də Uzun Həsənin yanına Marko Rosso adlı səfir gəlmişdi. Həmin gün padşahın yanında iki nəfər yerli əyan var idi. Padşah onlardan birini Moskvaya , digərini isə Burqundiyaya səfir göndərmək istəyirdi”[56].

Uzun Həsənin ölümündən sonra da Ağqoyunlu –Venesiya arasında danışıqlar davam etmiş, 1485-ci ildə səfir Covanni Dario Sultan Yaqubun qəbulunda olsa da, Osmanlılara qarşı birgə müharibə planı baş tutmamışdı[57].

[55] Yenə orada, s. 107

[56] Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə., s. 12; Azərbaycan tarixi. Üçüncü cild (XIII-XVIII əsrlər), Bakı, 1999, s. 95

[57] Mahmudov Y. Azərbaycan diplomatiyası., s.165

### *Ağqoyunlu dövlətinin zəifləməsi və süqutu*

1472-1473-cü illərdə Osmanlı dövlətinə qarşı aparılan müharibədəki məğlubiyyət Ağqoyunlu dövlətinin siyasi, sosial-iqtisadi durumuna ağır təsir göstərmiş, ölkə daxilində hərbi-köçəri əyanların separatizminə rəvac vermişdi. 1474-cü ildə Uğurlu Məhəmməd atasına qarşı qiyam qaldırmış[58], lakin yenilərək Osmanlı sarayına qaçıb II Mehmedin qızı ilə evlənmişdi.

Uğurlu Məhəmmədin qiyamı yatırıldıqdan sonra Uzun Həsən 1475/1476-ci ildə Misir məmlük sultanlığına və siyasi pərakəndəlik dövrü yaşayan Gürcüstana yürüş təşkil edərək Tiflis daxil olmaqla Şərqi Gürcüstanı ələ keçirmişdi. Həsən padşahın vəfatından sonra (1478-ci il, 5 yanvar) qısa müddət ərzində Ağqoyunlu taxtına Sultan Xəlil sahiblənmiş, az sonra onu Sultan Yaqub əvəz etmişdi (1478-1490). Sultan Yaqubun 12 illik hakimiyyəti dövrü Ağqoyunlu dövlətinin tarixində nisbi sakitlik dövrü kimi xarakterizə olunur[59]. Sultan Yaqub 1480-ci ildə 100.000-lik ordu ilə Ruha (Urfa) qalasına hücum etmiş, Misir və Suriya məmlik sərkərdəsi əmir Yaşbəyin qoşunlarını məğlub etmiş[60], 1483-1484-cü illərdə vergi verməkdən imtina edən gürcü knyazlarına qarşı yürüyüş edərək, Axısqa və Xatun qalalarını dağıtmış, onları yenidən itaətə məcbur etmişdi[61].

Sultan Yaqubun hakimiyyəti dövründə Səfəvilərin Ərdəbil hakimliyi ilə Həsən padşah dövründən əsası qoyulan dostluq münasibətləri pozulmuş və 1488-ci ildə Ağqoyunluların və Şirvanşahın birləşmiş qüvvələri Şahdağın ətəyində qızılbaşları məğlub edərək, Şeyx Heydəri qəflə yetirmiş, onun varisləri həbs olunmaqla Ərdəbil mülkləri müsadirə olunmuşdu.

Sultan Yaqubdan sonra Ağqoyunlu dövlətində bərqərar olmuş nisbi sakitlik dərhal pozulmuş, nüfuzlu hərbi əyanlar tərəfindən dəstəklənən şahzadələr arasında hakimiyyət uğrunda mübarizələr qızışmışdı. Qısa müddət hakimiyyətdə olan Baysunqur (1490-1492) taxtdan salınmış, Ağqoyunlu taxtına Rüstəm padşah (1492-1497) çıxarılmışdı[62]. Çoxlu soyurğal bağışlamaqla hərbi-köçəri əyanları ram etməyə çalışan Rüstəm padşahın hakimiyyətinə Uğurlu Məhəmmədin oğlu Əhməd tərəfindən son qoyuldu. Osmanlı ordusunun yardımı ilə Sultaniyyə və Araz çayı sahilində Rüstəm Mirzəni məğlub edərək taxta çıxan Əhmədin də səltənəti uzun çəkmədi[63]. Belə ki, onun soyurğal torpaq sahibliyini məhdudlaşdırmaq və qeyri-qanuni vergiləri ləğv etmək cəhdləri əyanların ciddi müqaviməti və bu şahın da ölümü ilə nəticələndi. Bundan sonra Ağqoyunlu şahzadələri Murad və Əlvənd arasında başlanan qarşıdurma 1500-cü ildə tərəflər arasında Əbhər sazişinin bağlanması ilə nəticələndi, Qızılüzən çayı sərhəd olmaqla Cənubi Azərbaycan, Qarabağ, Qərbi Azərbaycan Əlvənd Mirzənin, İraqi Ərəb, İraqi Əcəm, Fars və Kirman vilayətləri isə Murad Mirzənin

---

[58] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.292

[59] Фазлуллах ибн Рузбихан Хунджи. Тарихи аламара-йи Амини. Пер.с английского на русский Т.А.Минорский. Баку, 1987, с.58

[60] там же, с.60-61

[61] Фазлуллах ибн Рузбихан Хунджи. Тарихи аламара-йи Амини., с.92-96; Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.321

[62] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s. 333; Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə., s.110

[63] Həsən bəy Rumlu. Əhsənüt-təvarix., s.347-348; Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə., s.111

əlinə keçdi. 1501-1503-cü illərdə baş vermiş Sərur və Həmədan yaxınlığındakı savaşlarla qızılbaşlar Ağqoyunlu dövlətinin varlığına son qoydular.

### *Sosial-iqtisad həyat*

XV əsrin əvvəllərində Azərbaycanda Cəlairi, Teymuri ağalığına son qoyulması, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması, siyasi sabitliyin nisbətən bərqərar olması ölkənin iqtisadi inkişafında dirçəlişə səbəb olmuşdu. Təsərrüfatın ənənəvi sahələri olan əkinçilik və maldarlıq, həmişə olduğu kimi, Azərbaycan iqtisadiyyatının əsasını təşkil edir, Azərbaycan şəhərlərinin iqtisadi həyatında isə sənətkarlıq və ticarət aparıcı mövqe tuturdu. İstehsal olunan məhsulların böyük bir hissəsi daxili tələbatın ödənilməsi, bir hissəsi isə xarici bazarlara yönəlirdi. Azərbaycanın ixrac potensialında xam ipək, ipək və pambıq parçalar, xalça-palaz ədviyyat, təbii boyalar, zərgərlik məmulatları, neft, duz və s. mühüm yer tuturdu. Azərbaycan ərazisindən keçən beynəlxalq tranzit ticarət marşrutları (Hələb-Təbriz, Beyrut-Təbriz, Təbriz-Trabzon, Təbriz-Bursa, Təbriz-Biləsuvar-Mahmudabad-Şamaxı-Bakı və s.) dövlətin əsas gəlir mənbələrindən birini təşkil edirdi. Osmanlı və Qərbi Avropa ölkələrində xam ipəyə olan tələbatın getdikcə artması Şirvan, Qarabağ və İranın bir sıra vilayətlərində ipəkçiliyin inkişafına böyük təkan verirdi. Sultaniyyə, Təbriz, Şamaxı, Bakı, Ərdəbil və s. kimi Azərbaycan şəhərləri əsas ipəkçilik, sənətkarlıq, ticarət mərkəzləri rolunu oynayırdılar. XIV əsrin sonu –XV əsrin əvvəllərində Şərqin “birjası” rolunu oynayan Təbrizin dəfələrlə dağıntı və qarətə məruz qalması onun aparıcı mövqeyinə ağır zərbə vurmuş və nəticədə 1451-1452-ci illərdə Qaraqoyunlular tərəfindən dağıdılana qədər Sultaniyyə şəhəri ölkənin əsas ticarət və sənətkarlıq şəhərinə çevrilmişdi. XV əsrin başlanğıcında hər iki şəhərdə olmuş R. Klavixonun “Sultaniyyənin əhalisi çxdur, lakin Təbriz qədər böyük deyildir. Amma orada daha çox ticarət edirlər”,-ifadəsi bu faktı bir daha təsdiq edir[64]. Sultaniyyənin dağıdılmasından sonra Təbriz yenidən öz əvvəlki nüfuzunu bərpa edərək Yaxın Şərqin əsas sənətkarlıq və ticarət mərkəzinə çevrildi. A.Kontarinin 1474-cü ildə Sultaniyyədə “diqqətimi cəlb edən bir şey tapa bilmədim”,- deməsi, “Təbrizdə bir neçə bazar var. Buraya çoxlu ipək gətirilir. Sonra ipək karvan vasitəsilə Hələb şəhərinə aparılır”,- ifadələri də bunu sübut edir[65].

Konstantinopolun fəthindən sonra Qara və Aralıq dənizi sahillərindəki ticarət mərkəzlərinin Osmanlı dövlətinin nəzarəti altına düşməsi və ağır gömrük siyasətinin tətbiqi Şimal ticarət yoluna marağı artırmış və bu yolda əsas məntəqə olan Şamaxı və Bakı şəhərlərinin inkişafına təkan verilmiş, əsas ipəkçilik və sənətkarlıq mərkəzi olan Şamaxı şəhəri Xəzər dənizi vasitəsilə Rusiya və Avropa bazarlarına geniş çıxış imkanları əldə etmişdi. R. Klavixonun “Şamaxıda ipək lap çox istehsal olunur. İpək almaq üçün hətta Genuya və Venesiya tacirləridə bura gəlirlər”,- ifadəsi heç də

---

[64] Клавихо Р.Г. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406). Перевод со староиспанского И.С.Мироновой. М., 1990, с.80-81

[65] Библиотека иностранных писателей о России (БИПР), т. I, СПб, 1836, с.50; Mahmudov Y.M. Səyyahlar,kəşflər,Azərbaycan. Bakı,1985, s. 176-177

təsadüfi deyildi. A.Kontarininin yazdığına görə “Şamaxıda istehsal edilən ipək İtaliyada Talaman ipəyi adi ilə məşhur idi”[66].

Şimal ticarət yoluna marağın artması Xəzər dənizinə iri tutumlu ticarət gəmilərinin daxil olmasına səbəb olmuş, bu tipli gəmiləri qəbul etmək imkanı olmadığından Dərbənd əsas liman kimi öz əvvəlki əhəmiyyətini itirməyə başlamışdı. Daha əlverişli şəraitə malik olan Bakı Azərbaycanın əsas liman şəhərinə çevrilmiş və məhz bu səbəbdən də səyyah gündəliklərində XV əsrdən etibarən Xəzər dənizi “Bakı dənizi” adı altında qeydə alınmağa başlamışdı[67].

Yaxın Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ənənəvi torpaq mülkiyyəti formaları qalmaqda idi. Dövlətə məxsus olan torpaqlar əraziyi-divani və ərzaiyi-xassə (padşah və hakim sülalə üzvlərinə məxsus torpaqlar) iki hissəyə bölünürdü. Əraziyi- divani torpaqlarının gəlirləri dövlətin ümumi xərclərinin, əraziyi-xassənin gəlirləri isə hakim sülalə və saray xərclərinin ödənilməsinə sərf olunurdu. Müsəlman və xristian dini idarələrinə məxsus olan torpaqlar vəqfi-xeyri, din xadimlərinin bilavasitə özlərinə məxsus torpaqlar isə vəqfi-əhli adlandırdı. Bəhs olunan dövrdə Bibiheybət ziyarətgahı və Ərdəbildə Şeyx Səfi məqbərəsinə məxsus vəqf torpaqlarının olması bəllidir. Oturaq əyanların xüsusi mülkiyyətində olan mülk torpaqları irsi mahiyyət daşıyır, azad alqı-satqı obyektinə çevrilə bilir, istənilən vaxt bağışlana və özgələşdirilə bilirdi.

Kənd icmalarının ümumi istifadəsində olan camaati-deh torpaqlarından elliklə istifadə müqabilində vergiilərin ödənilməsi nəzərdə tutulur, bəzi hallarda isə belə torpaqlar üzərində kənd icmasının xüsusi mülkiyyət hüququnun olmasına da təsadüf olunurdu.

XIV əsrin II yarısından etibarən şərti bağışlanma institutu olan iqta sahibliyi soyurğal torpaq mülkiyyəti forması ilə əvəzlənməyə başladı və XV əsrdə soyurğal torpaqlarının miqyası xeyli genişləndi. Monqolca “bəxşiş” anlamı verən soyurğallar torpaqları hərbi və ya mülki xidmət müqabilində dövlət tərəfindən verilir, sahibi-soyurğal vergi, polis və məhkəmə immuniteti hüququna malik olurdu. Soyurğal paylamaqda xüsusi “səxavəti” ilə seçilən Rüstəm padşahın “öz adamlarına verdiyi qədər Ağqoyunlu və Qaraqoyunlu sultanlarının heç birisi soyurğal paylamamışdı”. Çöx geniş səlahiyyətlərə malik olan soyurğal sahiblərinin güclənərək “dövlətin daxilində dövlətə çevrilməsi“ əslində separatizm hallarının genişlənməsinə rəvac verirdi.

Əhalinin müxtəlif təbəqələrindən (əkinçi, maldar, sənətkar, tacir və s.) alınan vergi və mükəlləfiyyətlərin ümumi sayı 30-dan artıq idi. Dövlət məmurlarının özbaşnalıqları, qeyri-qanuni vergilərin toplanması, ölçü-çəkidə aldatma halları vergi yükünün zaman-zaman dözülməz hala gəlməsinə səbəb olurdu. Həsən padşahın “Qanunnamə”si, Əhməd Ağqoyunlunun vergi islahatı, bəzi hökümdarların vergi borclarını ləvğ etməsi müəyyən rahatlığa gətirib çıxarsa da, bu müvəqqəti xarakter daşıyırdı. Əsas məhsul vergisi olan malcəhat (və yaxud bəhrə) məhsulun 1/5 hissəsini təşkil edirdi. Otlaqlardan istifadə müqabilində yığılan çobanbəyi, sənətkar və

---

66 Клавихо Р.Г. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406)., с.80

67 Клавихо Р.Г. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406)., с.80; Mahmudov Y. Azərbaycan diplomatiyası., s.64

tacirlərdən alınan tamğa və bac vergiləri dövlət xəzinəsinin mühüm gəlir qaynaqlarından hesab olunurdu. Dövrün qaynaqlarında əhalidən yığılan vergi və mükəlləfiyyətlər içərisində cizyə, ixracat, şiltaqat, rəsməl-vüzarə, əvarizat, mərаşi və s. kimi onlarla vergi və mükəlləfiyyət adlarına təsadüf olunur. Bəzi hallarda vergi toplamaq hüququnun ayrı-ayrı adamlara icarəyə (müqatiə) verilməsi vəziyyəti daha ağırlaşdırırdı.

Azərbaycan əhalisi sosial tərkibinə görə hakim, imtiyazlı və aşağı təbəqədən ibarət olmuşdur. Hakim təbəqənin özü də hökmdar başda olmaqla hakim sülalə üzvləri, hərbi-köçəri əyanlar, oturaq əyanlar, ali ruhanilər və mülki bürokratiya nümayəndələrindən ibarət idi. Aşağı təbəqəni isə əsasən rəiyyət, rəncbər, elat adlı qruplardan ibarət olan kəndlilər, sənətkar və tacirlərdən ibarət olan şəhər əhalisi təşkil edirdi.

Azərbaycan dövlətləri ictimai-siyasi quruluşuna görə monarxiya tipli dövlətlər olmuşdur. Dövlətə qeyri-məhdud səlahiyyətlərə malik olan şah, xan və ya sultan titulu daşıyan hökmdar başçılıq edir, hakimiyyət irsi mahiyyət daşıyırdı. Mərkəzi idarə aparatında mühüm təsisatlardan biri olan Ali divanda vəzifələrə təyinat, gəlirlərin yığılması və xərclənməsi ilə bağlı mühüm qərarlar qəbul olunurdu. Dövlətin müharibə, sülh, taxta varislik və s. kimi mühüm siyasi məsələlərini sülalə üzvləri və nüfuzlu əmirlərin kənqaş adlanan qapalı müşavirəsi həll edirdi.

Hökmdardan sonra mərkəzi idarə aparatında ikinci mövqe tutan əmirül-ümərа orduya başçılıq edirdi. Sədr-əzəm bütün müsəlman ruhanilərə, vəqf əmlakına, onun gəlirləri, mədrəsə və xeyriyyə idarələrinə nəzarət edirdi. Dövlətin mülki-maliyyə sisteminə, xarici siyasət kursuna ümumi rəhbərlik baş vəzir tərəfindən həyata keçirilir, o, həmçinin ali divana rəhbərlik etdiyi üçün sahib-divan adlanırdı. Dövlətin ərazisi inzibati baxımdan vilayətlərə bölünür və bir qayda olaraq vilayətlərin idarəsi şahzadələrə və yaxud nüfuzlu əyanlara həvalə olunurdu. Şahzadələr azyaşlı olduqda onların lələsi (atabəyi) həmin vilayətlərin idarəsinə nəzarəti öz əllərində saxlayırdılar. XV əsr Azərbaycan dövlətlərinin idarə sistemində eşikağası, möhrdar, xəzinədar, əmiraxur, münşiəl-məmalik, mustovfi, divanbəyi, təvaçi, darğa və s. kimi vəzifə sahibləri də iştirak edirdilər.

Azərbaycan dövlətlərinin döyüşçüləri əsasən ağır silahlanmış süvarilər, oxçular və yardımçı hissədən ibarət olmuş, bəzi hallarda, xüsusi ehtiyac yarandıqda rəiyyət də hərbi xidmətə cəlb olunmuşdur. Əsasən soyuq silahlarla silahlanan Qaraqoyunlu və Ağqoyunlu ordusu 40000-100000 nəfəri əhatə edirdi. Azərbaycan tarixində ilk dəfə odlu silahlardan, top və tüfənglərdən Ağqoyunlu ordusunda az da olsa istifadə olunmuşdur.

## *Mədəniyyət*

Yadelli ağalığına son qoyulması, daxili çəkişmələrin nisbətən səngiməsi, Azərbaycanda milli dövlətçiliyin bərpa olunması, Qara Yusif, Cahanşah, Həsən padşah və Sultan Yaqubun təhsil, elm, mədəniyyət xadimlərinə xüsusi qayğı ilə yanaşması ölkənin iqtisadi və mədəni inkişafına da müsbət təsir göstərmişdi.

XV əsrin əvvəllərində Qara Yusif, sonra isə Həsən padşah Quranı türk dilinə tərcümə etdirərək, bu dildə oxutdururdular. Həsən padşah və Sultan Yaqub elm adamları, üləma və din xadimlərini himayə edirdilər. Tanınmış alimlərdən Əli Quşçu, Əbubəkr Tehrani–Həsən padşahın, Fəzlullah Ruzbihan Xunci Sultan Yaqubun sarayında böyük izzət sahibləri idilər.

Əvvəlki dövrlərdə olduğu kimi, XV əsrdə də Azərbaycanda təhsilin ənənəvi növləri – məktəb və mədrəsələr sistemi qorunub saxlanılırdı. İbtidai təhsil müəssisələri bir qayda olaraq, əsasən, məscid, qismən təkyə, zaviyə, xanəgahların nəzdində fəaliyyət göstərirdi. Məktəblərdə yazmaq, oxumaq, müxtəlif fənlər üzrə ilkin biliklər aşılanır, müəllimlər öyrənciləri mədrəsə təhsil pilləsi üçün hazırlayırdılar.

Mədrəsə təhsil sistemi isə əsasən orta, qismən ali təhsil müəssisələri hesab olunur, orada dini biliklərlə yanaşı, dünyəvi elmlər – hesab, nücum, məntiq, tarix, coğrafiya, fəlsəfə, ədəbiyyat və s. tədris olunurdu. Təbrizdə “Fələkiyyə”, “Dəməşqiyyə”, “Məqsudiyyə”, “Müzəffəriyyə”, “Nəsriyyə”, “Safeiyyə”, “Hənəfiyyə”, Bakıda Şirvanşahlar sarayının nəzdində “Şah məscidi”, Seyid Yəhya Bakuvi, Ərdəbildə “Darül-irşad” və s. kimi mədrəsələr fəaliyyət göstərirdi.

Azərbaycanda elmin müxtəlif sahələri üzrə görkəmli xadimlər fəaliyyət göstərərək mədəniyyətin sonrakı inkişafına böyük təsir göstərmişdilər. Bu dövrün ədəbi-fəlsəfi mühitinə hürufi-panteist dünyagörüşlərinin güclü təsiri qabarıq hiss olunur, türkcənin ədəbi dil səviyyəsinə yüksəlmə arealı genişlənirdi.

İmadəddin Nəsiminin (1369-1417) poeziyası və fəlsəfi baxışları, Bədr Şirvaninin (1387-1450), Şah Qasım Ənvarın (1356-1434), Seyid Yəhya Bakuvinin (1464-cü ildə vəfat etmişdir), Bədrəddin Seyid Əhməd Laləvinin (1436-1507) və s. ədəbiyyat, fəlsəfə, məntiq, hesab, fiqhə aid əsərləri Yaxın Şərqin bir çox ölkələrində tanınmış, mədəniyyətin ümumi inkişafına böyük töhfələr vermişdi. Azərbaycanın ictimai və mədəni həyatında mühüm rol oynayan Qaraqoyunlu hökmdarı Cahanşah elmə, təhsilə böyük qayğı göstərmiş, incə, rəvan təbə malik olmuş və “Həqiqi” təxəllüsü ilə qələmə aldığı divanı dövrümüzə qədər gəlib çıxmışdır.

XV əsrin tanınmış tibb alimi Şükrullah Şirvani Qahirədə təhsil almış, II Sultan Mehmedin sarayında çalışmış, təbabət üzrə əsərlər yazmışdı. XIV-XV əsrlərdə Azərbaycanın coğrafiya və tarixi biliklər sahəsində tanınmış alimlərindən biri də Əbdürrəşid Bakuvi olmuşdur. Ağqoyunlu dövlətinin saray tarixçiləri olan Əbubəkr Tehrani və Fəzlullah ibn Ruzbihan Xuncinin əsərləri XV əsr Azərbaycan tarixini öyrənmək baxımından əvəzsiz elmi dəyərə malikdir.

Azərbaycan musiqi mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri Əbdülqadir Marağeyi (1353-1435) olmuşdur. Əbdülqadir Marağeyi məlahətli səsə malik olmuş, bir müddət Cəlairilərin, sonra isə teymuri-Miranşahın sarayında da fəaliyyət göstərmişdir. Səfiəddin Urməvi musiqi nəzəriyyəsini təkmilləşdirərək 12 məqamdan törəmə 24 şöbə sisteminin nəzəri özülünü yaratmışdır.

Azərbaycan mədəniyyətinin aparıcı sahələrindən birini memarlıq təşkil etmişdir. Bu dövr Təbriz və Şirvan memarlıq məktəbinin inkişafında mühüm mərhələni təşkil edir. XV əsr Təbriz memarlıq məkltəbinin şah əsərlərindən biri 1465-cı ildə inşa olunmuş “Göy məscid”dir. Mavi və göy kaşılarla bəzədildiyi üçün

belə adlandırılan bu məscid "İslamın firuzəsi" adını qazanmışdır. Həsən padşah Təbrizdə yeni bir məscid inşa etdirmiş, onun xanımı Səlcuqşah bəyim isə, islamın ilkin çağında Təbrizdə tikilən cümə məscidini bərpa etdirərək abadlaşdırmışdı. Şirvanşahların Bakıdakı saray kompleksindəki Şah məscidi də dövrün dini tikililərin içərisində mühüm yer tutur.

Əsrin mülki xarakterli memarlıq abidələri içərisində Təbrizdə inşa olunan "Qeysəriyyə" bazarı və "Həşt-behişt" saray kompleksi mühüm yer tutur. Həsən padşah dövründə tikintisinə başlayan, Sultan Yaqubun zamanında başa çatdırılan "Həşt-behişt" sarayı nəhəng kompleks – 20000 otaq, xiyaban, hovuz, fəvvarələr, cıdır düzü və s. elementləri özündə birləşdirmişdir[68].

Ən möhtəşəm memarlıq kompleksi Şirvanşah I Xəlilullah dövründə (1417-1462) inşa olunan Şirvanşahlar sarayıdır. 1420-1450-ci illər arasında tikilən Şirvanşahlar saray kompleksində Divanxana, Şah məscidi və Seyid Yəhya Bakuvinin Səkkizgüşəli məqbərəsi mühüm yer tutur.

Əsrin xatirə tikililəri içərisində Bakıda Seyid Yəhya Bakuvi, Şamaxının Mərəzə kəndində "Diri Baba" (1402), Qəbələnin Həzrə kəndində "Şeyx Bədrəddin" (1446) və Şeyx Barik türbələri də xüsusi yer tutur. Dövrün mədəni həyatında, xəttatlıq, kitabxana və miniatür sənəti də önəmli mövqeyə malik olmuşdur. Bu dövrdə Təbriz, Ərdəbil, Şamaxı və digər şəhərlərdə Mirəli Təbrizi, Mirabdulla Təbrizi, Cəfər Təbrizi, Əbdürrəhim əl-Yəqubi, Süleyman Əli Yaqubi, Nizaməddin Əli Ərdəbili və s. kimi məşhur xəttatlar fəaliyyət göstərirdi. Fəzlullah Rəşidəddinin "Camiət-tarix" əsərinə (1310-1415), Sultan Əhməd Cəlairinin "Divan"ına (1405-1410, Nizaminin "Xosrov və Şirin" əsərinə miniatürlər çəkilmişdi. 1481-ci ildə tərtib olunan Nizaminin "Xəmsə"sinə (hazırda İstanbulun Topqapı muzeyindədir) Şeyxi və Dərviş Məhəmməd tərəfindən 1468-cı ildə ərsəyə gələn Şamaxı "Məcmuəsi"nə çəkilmiş miniatürlər təsviri sənətin parlaq inciləri sırasında önəmli yer tutur.

Dövrün incəsənət nümunələri içərisində xalçaçılıq, bədii parça, metal, saxsı məmulatlarının tərtibatı, oyma, qabartma, kaşıbişirmə və s. kimi dekorativ tətbiqi sənətlər dinamik inkişaf prosesini davam etdirmişdir.

---

[68]Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri., s.469-473